


**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti — 28 aprel 2023-cü il


# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


**BDU rektoru Böyük Britaniyanın Qlazqo Universitetinin Qlobal əməkdaşlıq üzrə dekanı ilə görüşüb** →Səh.2

**BDU alimləri Tərtər məktəblilərinə Ümummilli Lider Heydər Əliyevin irsi ilə bağlı mühazirə deyiblər** →Səh.4

**Elmi-tədqiqat üzrə birgə fəaliyyətin təşkili ilə bağlı Anlaşma Memorandumu imzalanıb** →Səh.10

**BDU-da Bakı və region gənclərinin I elmi konfransı** →Səh.11

**BDU-da Hirş indeksinə verilən tələblərə dair müzakirələr keçirilib** →Səh.12

**BDU tələbələri minaların təhlükəsi barədə məlumatlandırılıb** →Səh.16

**BDU tələbələri Təhsil Tələbə Krediti Fondunun fəaliyyəti barədə məlumatlandırılıb** →Səh.22





**İsrailin Azərbaycandakı səfiri BDU-da** →Səh.2





**"Heydər Əliyev və ordu quruculuğu" mövzusunda dəyirmi masa** →Səh.3





**BDU və Tərtər Rayon İcra Hakimiyyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirib** →Səh.5





**"Mir Cəlalın insanlıq fəlsəfəsi " adlı beynəlxalq elmi seminar keçirilib** →Səh.6





**Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş Respublika konfransı keçirilir** →Səh.8





## Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

***Aprelin 18-də Bakı Dövlət Universitetində görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib.***

Konfransın açılışından əvvəl BDU kollektivi II Fəxri xiyabanı ziyarət edib. Görkəmli yazıçının məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, görkəmli yazıçı, ədəbiyyatşünas alim, unudulmaz pedaqoq Mir Cəlal Paşayev milli ədəbiyyatımızda özünəxas yer tutur. Mir Cəlalın zəngin və çoxşaxəli fəaliyyəti nəinki öz dövründə, həm də gələcək zamanlar üçün bir örnəyə çevrilib. Böyük pedaqoq və alimin qələmindən çıxan onlarla elmi məqalə, publisistik-tənqidi yazı, onun bədii təfəkkürünün məhsulu olan hekayə və irihəcmli əsərlər bu gün də öz dəyərini və aktuallığını qoruyub saxlayır. Mir Cəlalın həqiqətə və milli düşüncəyə, milli özünüdərkə söykənən hər bir yazısı əbədi yaşamaq haqqı qazanıb. Böyük vətənpərvər yazıçı elmi yaradıcılığında da millilik və azərbaycançılıq amilini həmişə uca tutub, xalqın milli dəyərlərinin unutdurulduğu bir zamanda böyük Azərbaycan şairi Füzulidən və onun ana dilində yaratdığı əsərlərinin poetik qüdrətindən bəhs edib. Yazıçı insan xarakterləri, eləcə də xalqına ləyaqətlə xidmət etməyə çalışan milli duyğulu, sədaqətli insan obrazları yaratmağa müvəffəq olub, dövrün mənzərəsini ustalıqla əks etdirib. O, yüzlərlə gəncin, tələbənin, gənc tədqiqatçının arxa-dayağı, simsarı kimi bu gün də sevgi ilə xatırlanır, yaddaşlarda işıqlı bir şəxsiyyət, bir müəllim kimi yaşayır. Rektor bildirib ki, Mir Cəlal Paşayev ömrünü nadir istedadı və insanlığı ilə bəşəriyyətə, Azərbaycan milli mədəniyyətinə, ədəbiyyatına, xalqına xidmətə həsr edib. Onun çoxşaxəli, zəngin bədii yaradıcılığı milli nəsrimizin ən parlaq nümunələrindəndir.

Onun pedaqoji fəaliyyətinin xüsusiyyətləri Azərbaycan maarifçiliyinin ən dəyərli, qiymətli tarixi faktlarındandır. O, özünün elmi məktəbini yaratmış nadir alimlərimizdən, ədəbiyyatşünaslarımızdandır: "Böyük ədib ömrü boyu pedaqoji fəaliyyətindən uzaqlaşmayıb. Böyük fəxrdir ki, Mir Cəlal müəllim uzun müddət BDU-nun Filologiya fakültəsində çalışıb, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri olub, məhz burada özünün elmi məktəbini yaradıb. Mir Cəlal müəllim yorulmaz, zəhmətkeş, fövqəladə biliyə və təfəkkürə sahib, istedadlı bir şəxsiyyət olmaqla bərabər, həm də olduqca məğrur, əyilməz, sadə, təvazökar, hamını sevməyi bacaran, istedadlılara xüsusi qayğı bəsləyən, humanist, fədakar bir insan, yazıçı, alim, pedaqoq kimi hələ sağlığında böyük hörmət qazanmışdı. BDU-nun sevimli və unudulmaz müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir". İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur".

Tədbirdə Mir Cəlal Paşayevin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub.

Daha sonra BDU-nun Mir Cəlal Paşayev adına məqsədli təqaüdünün qalibi elan edilib. Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə II kurs tələbəsi Nuridə İsmayılova təhsildəki uğurlarına görə bu mükafata layiq görülüb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli isə qeyd edib ki, Mir Cəlal Cəlil Məmmədquluzadədən sonra Azərbaycan klassik hekayə janrının çox böyük ustadıdır. Mir Cəlalın "Dirilən adam" romanı isə Azərbaycanda psixoloji romanın ilk böyük nümunəsidir. "Bir gəncin manifesti"ni Azərbaycan ədəbiyyatının şedevri adlandıran AMEA prezidenti vurğulayıb ki, Mir Cəlal həmişə insana, onun mənəvi aləminə sadiq yazıçı olub. Mir Cəlal ustad müəllim kimi Azərbaycan maarifçiliyinə öz möhürünü vurub.


*(Ardı 7-ci səhifədə)*

# Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzinin Aparat rəhbəri ilə görüş

*Aprelin 3-də BDU-nun rektoru Elçin Babayev Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzinin Aparat rəhbəri Kristofer Kempbell-Holtun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Rektor Elçin Babayev qonaqlara BDU-nun tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti, beynəlxalq əlaqələri, "Universitet-5.0" adlı prioritet istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd edib ki, BDU Azərbaycanın ən qədim və böyük universitetidir. Universitetdə hazırda 16 fakültə, 120 kafedrada ali təhsilin bütün səviyyələrində 25000-ə yaxın tələbə təhsil alır, 3000-ə qədər əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Rektor BDU-nun beynəlxalq əlaqələrində türkdilli dövlətlər, o cümlədən Qazaxıstan universitetləri ilə əməkdaşlığa xüsusilə önəm verildiyini qeyd edib.



Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzinin rəhbəri Kristofer Kempbell-Holt qəbula görə təşəkkürünü bildirib. O, beynəlxalq yurisdiksiyaya malik olan bu məhkəmənin fəaliyyəti ilə bağlı geniş məlumat verib. Qeyd edib ki, Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzi Qazaxıstanda yerli hüquq sisteminə alternativ, müstəqil, beynəlxalq məhkəmə sistemi olub, dövlət qurumları, iri şirkətlər, ali məktəblərlə əməkdaşlıq edir, hüquqi fəaliyyətlə yanaşı, təlim və təcrübə proqramları həyata keçirir.

Görüşdə BDU ilə Astana Beynəlxalq Maliyyə Mərkəzinin Məhkəməsi və Beynəlxalq Arbitraj Mərkəzi arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# BDU Tərtərin 3 məktəbinə kompüter və kitablar hədiyyə edib

*Bakı Dövlət Universiteti və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Tərtər şəhər 1 və 6 nömrəli, Şıxarx qəsəbə 2 nömrəli tam orta məktəblərinə kompüterlər hədiyyə edilib.*

Kompüterlər "Bestcomp" şirkətinin dəstəyi ilə alınıb.

Bundan əlavə, adıçəkilən məktəblərə BDU Elmi Kitabxanasından 271 adda 500-dək kitab da hədiyyə olunub. Hədiyyə olunan kitablar arasında BDU-nun öz nəşrləri, o cümlədən ikicildlik "Azərbaycan tarixi" kitabı, Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin müsahibələri, Universitet alimlərinin fəaliyyətini əks etdirən nəşrlər, bədii, tarixi, elmi əsərlər də yer alıb.




# BDU Elmi Şurasının növbəti iclası

*Aprelin 6-da Bakı Dövlət Universitetinin Elmi Şurasının növbəti iclası keçirilib.*

İclasda BDU-nun Kimya, Biologiya, Jurnalistika, Filologiya fakültələrinin 2022-ci il üzrə fəaliyyətinə dair hesabatlar dinlənilib. Fakültə dekanları Fuad Kərimli, Afət Məmmədova, Vüqar Əliyev və Elçin Məmmədov tərəfindən təqdim olunan hesabatlar müzakirə olunaraq qəbul edilib.

Daha sonra cari məsələlərə baxılıb.

# BDU rektoru Böyük Britaniyanın Qlazqo Universitetinin Qlobal əməkdaşlıq üzrə dekanı ilə görüşüb

*Aprelin 14-də BDU-nun rektoru Elçin Babayev Böyük Britaniyanın nüfuzlu universitetlərindən biri olan Qlazqo Universitetinin Qlobal əməkdaşlıq üzrə dekanı, professor Moyra Bolandla görüşüb.*

Rektor Elçin Babayev BDU-nun tarixi, elmi fəaliyyəti və beynəlxalq əlaqələri haqqında qonağa ətraflı məlumat verib. Universitetdə 16 fakültənin fəaliyyət göstərdiyini qeyd edən Elçin Babayev BDU-da ali təhsilin bütün səviyyələrində 25000-ə yaxın tələbənin təhsil aldığını bildirib. Rektor BDU-nun beynəlxalq əlaqələrində Avropa dövlətləri, o cümlədən Böyük Britaniyanın universitetləri ilə əməkdaşlığa xüsusilə önəm verdiyini vurğulayıb.

Qlazqo Universitetinin Qlobal əməkdaşlıq üzrə dekanı, professor Moyra Boland qəbula görə təşəkkürünü bildirib. Moyra Boland Qlazqo Universitetinin fəaliyyəti, o cümlədən beynəlxalq əlaqələri haqqında məlumat verib, ikitərəfli əməkdaşlığın perspektivlərindən danışıb.

Görüşdə BDU ilə Qlazqo Universiteti arasında təhsilin müxtəlif istiqamətləri üzrə ikitərəfli əməkdaşlığın perspektivləri geniş müzakirə olunub. Qarşılıqlı anlaşma memorandumu əsasında tələbə, o cümlədən akademik və inzibati heyətin mübadiləsinin ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsində mühüm rol oynaya biləcəyi vurğulanıb.

# İsrailin Azərbaycandakı səfiri BDU-da



*Aprelin 28-də BDU-nun rektoru Elçin Babayev İsrailin Azərbaycandakı səfiri Corc Diklə görüşüb. Görüşdə elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, İsrailin Holon Texnologiya İnstitutunun prezidenti Eduard Yakubov və nümayəndə heyəti də iştirak edib.*

BDU rektoru Elçin Babayev qonaqları İsrailin müstəqilliyinin 75-ci ildönümü münasibətilə təbrik edib, yəhudilərin Azərbaycanda çoxəsrlik tarixə malik olduğunu, iki ölkə arasında münasibətlərin son illər daha da gücləndiyini deyib. 44 günlük Vətən müharibəsində İsrail Azərbaycanın haqlı mübarizəsini dəstəkləməklə xalqımızın qəlbində dərin məhəbbət qazanıb. Rektor bildirib ki, ölkəmizin İsraildə səfirliyinin açılması strateji əməkdaşlığın yeni mərhələyə yüksəldiyini göstərir. Bu münasibətlərin daha da möhkəmlənməsində təhsil əlaqələri böyük önəm daşıyır. Elçin Babayev BDU-nun İsrailin ali məktəbləri ilə əməkdaşlıqda maraqlı olduğunu, Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramının uğurla həyata keçirildiyini, Şərqşünaslıq fakültəsində ibri dilinin tədris edildiyini diqqətə çatdırıb.

Corc Dik iki ölkə arasında müxtəlif istiqamətlərdə olan əməkdaşlığı, o cümlədən, təhsil və elm sahəsində əlaqələri yüksək dəyərləndirib. Bu əlaqələrin daha da genişlənəcəyinə ümid etdiyini deyib.

Görüşdə BDU ilə İsrailin ali təhsil müəssisələri arasında əlaqələrin perspektivləri müzakirə olunub.

# BDU Gəncədə Mir Cəlal adına 39 nömrəli tam orta məktəbə kompüter və kitablar hədiyyə edib



*Aprelin 19-da BDU-nun görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş silsilə tədbirləri çərçivəsində Gəncədə görüş keçirilib.*

Əvvəlcə BDU-nun rektoru Elçin Babayev, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Universitetin nümayəndə heyəti Gəncədə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, xatirəsinə dərin ehtiramlarını bildiriblər. Daha sonra BDU-nun nümayəndə heyəti Gəncədə Mir Cəlal adına 39 nömrəli tam orta məktəbdə olub. Görkəmli edibin büstü önünə gül dəstələri qoyulub.

BDU tərəfindən məktəbə "Bestcomp" şirkətinin dəstəyi ilə alınan kömpüter dəsti hədiyyə edilib. Bundan əlavə, məktəbə BDU Elmi Kitabxanasından 102 adda 125-dək kitab da hədiyyə olunub. Daha sonra məktəbin şagirdlərinin ifasında Mir Cəlalın əsərləri əsasında hazırlanmış səhnəciklər göstərilib, görkəmli yazıçının məşhur aforizmlərindən seçmələr səsləndirilib.

# "Heydər Əliyev və Azərbaycanda türkologiyanın inkişafı" mövzusunda elmi seminar

***Aprelin 4-də Filologiya fakültəsinin Türkologiya kafedrasının nəzdində "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasında (ETL) Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda türkologiyanın inkişafı" mövzusunda elmi seminar keçirilib.***

Tədbirdə Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədli, İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, professor Abbas Abbasov, "Dədə Qorqud" və "Türkoloji araşdırmalar" ETL-in, Alman və fransız dilləri kafedrasının əməkdaşları, Tələbə Elmi Cəmiyyətinin üzvləri iştirak ediblər.

Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədli Ulu Öndər Heydər Əliyevin Azərbaycan elmi və təhsilinin tərəqqisi, xüsusilə filologiyanın inkişafı istiqamətində atdığı tarixi addımlardan, elm, ədəbiyyat və mədəniyyət xadimlərinə göstərdiyi xüsusi diqqət və qayğıdan söz açıb, 2023-cü ilin "Heydər Əliyev İli" elan olunmasının tarixi-mənəvi əhəmiyyətini vurğulayaraq, bu yöndə təşkil olunan elmi tədbirlərin dahi şəxsiyyətin irsinin öyrənilməsinə böyük töhfə olduğunu diqqətə çatdırıb. Natiq bildirib ki, dahi liderin hakimiyyəti illərində ölkəmizin bütün sahələrində olduğu kimi, türkoloji düşüncənin inkişafı istiqamətində baş verən dirçəliş, türk xalqları ilə mənəvi-siyasi əlaqələrin qurulması böyük tarixi nailiyyətdir. Ümummilli Liderin siyasi-ideoloji fəaliyyətində türk dünyası məsələlərinin araşdırılması humanitar elmlərin aktual problemlərindən biridir.

Sonra "Türkoloji araşdırmalar" ETL-in elmi işçiləri - filologiya üzrə fəlsəfə doktorları Ramil Bayramov "Türk xalqları arasında mənəvi və mədəni əlaqələrin qurulmasında Ulu Öndər Heydər Əliyevin rolu", filologiya üzrə fəlsəfə doktoru Suqra Rəhmanova "Azərbaycanda türkoloji dilçiliyin tarixi", Pərvin Eyvazov "Heydər Əliyev və müasir Azərbaycan türkologiyasında əsas hədəflər" mövzularında məruzələr ediblər. Məruzələrdə XX əsrin əvvəllərindən başlayaraq ölkəmizin türkoloji düşüncənin əsas mərkəzlərindən birinə çevrilməsindən, Heydər Əliyevin hakimiyyəti illərində aparılan mühüm türkoloji tədqiqatlardan və Müzəffər Ali Baş Komandan İlham Əliyevin türk dünyasının mənəvi-siyasi birliyinin möhkəmləndirilməsi yönündə atdığı tarixi addımların türkologiyanın inkişafına təsirindən bəhs olunub. Bildirilib ki, Azərbaycanda milli-ideoloji düşüncənin formalaşması, mənəvi dəyərlərimizin, tarixi köklərimizin tədqiqi və təbliği işinə hələ sovet dövrünün ən mürəkkəb illərində xüsusi diqqət ayıran Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi bütün sahələrdə olduğu kimi, filologiyanın, o cümlədən türkoloji düşüncənin inkişafına ciddi təsir göstərib. Bu mühüm addımlardan biri kimi BDU-da Türkologiya kafedrası yaradılıb və türk xalqlarının dillərinin, ədəbiyyatlarının öyrənilməsinə ciddi təkan verilib. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, TÜRKSOY-un, Türk Yazarlar Birliyinin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətləri olub. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500, "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Ulu Öndərin adı ilə bağlıdır. Məruzələrdə həmçinin türkologiya sahəsində mühüm xidmətləri olan görkəmli azərbaycanlı alimlərin fəaliyyətindən, onların elmi yaradıcılığının dünya türkologiyasına təsirindən söz açılıb.

Sonra məruzələr ətrafında çıxışlar edilib, iştirakçıların sualları cavablandırılıb.

# "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda dəyirmi masa

***Aprelin 4-də Tarix fakültəsinin və akademik Zərifə Əliyeva adına liseyin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda dəyirmi masa keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov müasir Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı naminə xüsusi xidmətlərindən və çoxşaxəli fəaliyyətindən bəhs edib. Bildirib ki, Azərbaycanda güclü və yüksək döyüş hazırlığına malik ordu yaradılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycanda bütün sahələrlə yanaşı, ordu quruculuğunda böyük nailiyyətlər qazanılıb, peşəkar, yüksək səviyyəli nizami ordu formalaşdırılıb. Prezident, Ali Baş Komandan İlham Əliyevin



xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib. 44 günlük Vətən müharibəsindəki parlaq qələbə Milli Ordumuzun gücünün və qüdrətinin göstəricisidir.

Millət vəkili, Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi Naqif Həmzəyev, akademik Zərifə Əliyeva adına liseyin tarix müəllimləri Aytən Tahirli, Rüfət Rizayev çıxışlarında Ulu Öndərin hakimiyyətdə olduğu illərdə ordu quruculuğu, gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində misilsiz xidmətlərindən danışıblar. Qeyd olunub ki, Ulu Öndərin bu sahəyə qayğısı ilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin açılmasına, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də keçmiş SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail olundu. Dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli Milli Ordusunun peşəkar komandan heyətini təşkil etdi.

Daha sonra Tarix fakültəsinin II kurs tələbəsi Mehdi Rzayev vətənpərvərlik mövzusunda yazdığı şeiri səsləndirib. Akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi Aysu Poladova Aprel döyüşləri, Lələtəpə yüksəkliyinin azad edilməsinin 44 günlük Vətən müharibəsində oynadığı roldan, önəmindən danışıb.

Tədbirin sonunda Ulu Öndər Heydər Əliyevin ordu quruculuğunda xidmətlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Elmə aparan yol" adlı elmi-praktiki seminar keçirilib

***Aprelin 11-də BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Texnologiyaların transferi və innovasiyalar şöbəsinin və BDU-nun Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Fizika, Kimya və Mexanika-riyaziyyat fakültələrinin tələbələri və gənc tədqiqatçıları üçün Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Elmə aparan yol" adlı elmi-praktiki seminar keçirilib.***

Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov qeyd edib ki, tədbirin keçirilməsində əsas məqsəd elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etməklə "təhsil - elm - istehsalat" formatında fəaliyyətin qurulması, tələbələrdə tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, istedadlı tələbələrin seçilməsidir.

Daha sonra Fizika, Kimya və





Mexanika-riyaziyyat fakültələrinin dekanları Bəxtiyar Paşayev, Fuad Kərimli və Ziyatxan Əliyev çıxış edərək belə praktiki seminarların tələbələrin ixtisas üzrə biliklərinin artırılmasında və elmi-tədqiqat işlərinə cəlb edilməsində əhəmiyyətini vurğulayıblar.



Seminar tələbələrin müxtəlif mövzular üzrə təqdimatları ilə davam edib.

Fizika fakültəsinin tələbələrindən ibarət "FALCON TECH" komandası tərəfindən "Tesla Bobini" vasitəsilə elektrik enerjisinin naqilsiz ötürülməsi, qapalı qablarda su səviyyəsinin hündürlüyünün müəyyən edilməsi və kritik anlarda xəbərdarlıq sisteminin işlədilməsi, Morze əlifbasının köməyi ilə xəbərləşmə sisteminin hazırlanması nəzəri və təcrübi olaraq seminar iştirakçılarının diqqətinə çatdırılıb.

Mexanika-riyaziyyat fakültəsinin "QALUA" və "NYUTON" komandaları verilmiş vaxt ərzində müxtəlif tipli məntiqi məsələlərin həlli üzrə yarış keçiriblər. Müsabiqədə "NYUTON" komandası qalib gəlib.

Kimya fakültəsinin tələbələri "Ovucda partlayış", "Sehrli çubuq", "Buqələmun", "Fildişi pastası", "Soyuq alov" və "Köpük" adlı müxtəlif kimyəvi reaksiyaları nümayiş etdiriblər.

# "Heydər Əliyev və Azərbaycan ordusu" mövzusunda dəyirmi masa

***Aprelin 5-də Biologiya fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində "Heydər Əliyev və Azərbaycan ordusu" mövzusunda dəyirmi masa keçirilib.***

Fakültə dekanı Afət Məmmədova müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrünün xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, onun inkişaf strategiyasını müəyyən edib.





Sonra Qarabağ müharibəsi veteranı, sabiq batalyon komandiri, mayor Muxtar Həşimov keçdiyi döyüş yolu barədə məlumat verərək qeyd edib ki, bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Ulu Öndərin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.

Ehtiyatda olan polis polkovniki Adıgözəl Adıgözəlov, Qarabağ müharibəsi veteranı, ehtiyatda olan mayor Vahid Salmanov, Aprel döyüşçüsü, ehtiyatda olan baş leytenant Tərlan Babaşov, Vətən müharibəsi əlili, ehtiyatda olan gizir Fərahim Əmirli, Şuşa döyüşlərinin iştirakçısı Qorxmaz Həsənov çıxışlarında döyüş xatirələrini gənclərlə bölüşüb, müəllim və tələbələrin suallarını cavablandırıblar. Tədbirin sonunda tələbələrdən Kəmaləddin Hüseynov "Aprel səhəri" şeirini, Ayxan Altay "Cənab leytenant" mahnısını ifa edib.

# BDU alimləri Tərtər məktəblilərinə Ümummilli Lider Heydər Əliyevin irsi ilə bağlı mühazirə deyiblər

***Aprelin 7-də Bakı Dövlət Universitetinin rəhbərliyi, professor-müəllim heyəti Tərtər Rayon İcra Hakimiyyəti ilə birgə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Tərtər şəhər 1 və 6 nömrəli, Şıxarx qəsəbə 2 nömrəli tam orta məktəblərinin şagirdləri ilə görüşüb.***

BDU-nun rektoru Elçin Babayev, Elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov, Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, dosenti Azad Rzayev, İnformasiya və sənəd menecmenti fakültəsinin dosenti Knyaz Aslan Tərtər şəhəri 6 nömrəli, , Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, İnformasiya və sənəd menecmenti fakültəsinin dosenti Rasim



Süleymanov Tərtər şəhəri 1 nömrəli, İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Bayramov, Beynəlxalq münasibətlər kafedrasının dosenti Bəxtiyar Nəbiyev, Tarix fakültəsinin müəllimi Anar Həmidov Şıxarx qəsəbəsi 2 nömrəli tam orta məktəblərdə Ulu Öndər Heydər Əliyevin irsi ilə bağlı mühazirələr deyib, şagirdləri dahi liderin zəngin həyat və fəaliyyətini dərindən öyrənməyə, onun əsasını qoyduğu dəyərləri qorumağa və inkişaf etdirməyə səsləyiblər.

Şagirdlərlə görüşən BDU-nun rektoru Elçin Babayev müasir Azərbaycan dövlətinin qurucusu və memarı, bütün həyatını xalqımızın xoşbəxt gələcəyinə həsr edən Ümummilli Lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin və çoxşaxəli fəaliyyətindən bəhs edib. Rektor qeyd edib ki, Ulu Öndər özünün siyasi müdrikliyi, zəngin dövlətçilik təcrübəsi, qətiyyəti və yorulmaz fəaliyyəti ilə dövlət müstəqilliyimizin bütün təhlükələrdən xilas olmasını və ildən-ilə güclənməsini, sarsılmazlığını təmin edib. Ümummilli Liderin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Dövlət müstəqilliyi uğrunda şərəfli mübarizədə müstəsna rolu olan Ulu Öndər Heydər Əliyev ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində silinməz iz buraxıb, gələcək nəsillər üçün böyük məktəb yaradıb.

# "Ulu Öndər Heydər Əliyev Azərbaycanda müasir gənclər siyasətinin banisidir"

***Aprelin 11-də Hüquq fakültəsində "Ulu Öndər Heydər Əliyev Azərbaycanda müasir gənclər siyasətinin banisidir" adlı tədbir keçirilib. Tədbirdə Hüquq fakültəsi tərəfindən hazırlanmış və Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev Azərbaycan gənclərinin inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz rolundan bəhs edib, Ümummilli Liderin siyasətini uğurla davam etdirən Azərbaycan Repsublikasının Prezidenti İlham Əliyevin gəncliyin inkişafına yönəlmiş addımları, eləcə də bu sahədə Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun verdiyi töhfələrlə bağlı məlumat verib.

Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin Gənclərlə işin təşkili sektorunun müdiri Həmid Nəsibov və Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov çıxış edərək Ulu Öndərin gənclərin təhsili və inkişafında, gənc kadrların yetişdirilməsində əvəzolunmaz rolu və fəaliyyəti barədə ətraflı danışıblar.

Daha sonra Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri, III kurs tələbəsi Nihad Rəhimli və Hüquq fakültəsinin I kurs tələbəsi, Prezident təqaüdçüsü Həmidə Sadıqova Ulu Öndərin müasir gənclər siyasətinin banisi kimi fəaliyyəti haqqında çıxış ediblər. Həmid Nəsibov və Fərid Cəfərov tələbələri maraqlandıran sualları cavablandırıb, həmçinin tələbələr öz aktiv fəaliyyətləri barədə məlumatları qonaqlarla paylaşıblar.

# "Heydər Əliyev və Azərbaycan mediası" mövzusunda silsilə tədbirlər keçirilir

Aprelin 25-dən Jurnalistika fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan mediası" mövzusunda silsilə tədbirlərə start verilib.

Layihə çərçivəsində ilk tədbir Azərbaycan Mətbuat Şurasında baş tutub. Tədbiri açan Azərbaycan Mətbuat Şurasının sədri, BDU-nun İctimai Nəzarət Şurasının üzvü, Əməkdar jurnalist, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid Ulu Öndər Heydər Əliyevin Azərbaycan jurnalistikasının inkişafında, söz və mətbuat azadlığının qorunmasında tarixi xidmətlərini diqqətə çatdırıb. O qeyd edib ki, Ümummilli Liderin imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə kimi qiymətləndirilir. Məhz bu Fərmanla mətbuatda və digər KİV-lərdə Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi. Bu, mətbuat sahəsində tarixi hadisə idi. Ulu Öndər mətbuata və mətbuat işçilərinə hər zaman öz diqqətini göstərmiş, "Jurnalistlərin dostu" adına layiq görülmüşdür.

Sədr həmçinin 2003-cü ildə jurnalistlərin I qurultayında Mətbuat Şurasının yaradılmasından, həmin tədbirdə Ümummilli Liderin iştirakından da danışıb. Tədbirdə Jurnalistika fakültəsinin professor-müəllim və tələbə heyəti iştirak edib. Sonda mövzu ilə bağlı tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Hüquq fakültəsinin müəllim-tələbə heyəti Ədliyyə Nazirliyinin Heydər Əliyev Muzeyində

***Aprelin 20-də Hüquq fakültəsinin müəllim-tələbə heyəti Ədliyyə Nazirliyinin Heydər Əliyev Muzeyi və kitab sərgisi ilə tanış olublar.***

Tədbir çərçivəsində tələbələrə Ədliyyə Nazirliyinin tarixi, Ümummilli Lider Heydər Əliyevin ədliyyə sahəsinin inkişafında misilsiz xidmətləri haqqında ətraflı məlumat verilib. Muzey və kitab sərgisi ilə tanışlıq Ulu Öndər Heydər Əliyevin zəngin, çoxşaxəli həyat və fəaliyyəti barədə tələbələrdə geniş təəssürat yaradıb.



# BDU və Tərtər Rayon İcra Hakimiyyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirib





*Aprelin 7-də Bakı Dövlət Universitetinin və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.*

Konfransdan əvvəl Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, BDU-nun rektoru Elçin Babayev, Universitetin professor-müəllim heyəti Ümummilli Lider Heydər Əliyevin Tərtər şəhərindəki abidəsini, Şəhidlər xiyabanını və Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Sonra Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans öz işinə başlayıb. Əvvəlcə Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda açılış nitqi ilə çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Ulu Öndərin Azərbaycan xalqının və dövlətinin həyatındakı tarixi xilaskarlıq missiyasından söz açıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir. Ulu Öndər xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik dövlətə çevirib. Müstəqim Məmmədov vurğulayıb ki, Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi illərdə bütün regionlar kimi, Qarabağın dilbər guşələrindən olan Tərtər rayonuna da böyük diqqət və qayğı göstərib: "Ümummilli Lider Tərtəri "Azərbaycanın gözəl təbiəti, bərəkətli torpağı, zəngin keçmişi olan və əməksevər insanların yaşadığı bir diyar" adlandırırdı. Hazırda Tərtər rayonuna və tərtərlilərə bu diqqət və qayğı onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir". Daha sonra Müstəqim Məmmədov Vətən müharibəsində "döyüşən şəhər" olan Tərtərin düşmənə qarşı mübarizə əzmi, postmüharibə dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlər barədə məlumat verib.

BDU-nun rektoru Elçin Babayev isə çıxışında qeyd edib ki, XX əsrin 70-ci illərindən başlayaraq xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində məhz Ulu Öndər Heydər Əliyev siyasəti, bu fenomenal şəxsiyyətin işıqlı əməlləri, parlaq siması dayanır. Ümummilli Liderin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də böyük uğurlar əldə edilib. Ulu Öndər hələ respublikaya rəhbərliyinin birinci dövründə elmin, təhsilin inkişafına xüsusi diqqət yetirir, gələcəkdə müstəqil Azərbaycana bacarıqlı, peşəkar kadrların lazım olacağını prioritet hesab edirdi. Məhz dahi liderin böyük xidmətləri sayəsində respublikada ali təhsil müəssisələrinin sayı və onların qəbul planları artırılmış, tələbə qəbulunda şəffaflıq, ədalətlilik təmin olunmuşdur. Ulu Öndərin şəxsi nüfuzu və əlaqələri hesabına yüzlərlə azərbaycanlı gənc müvafiq ixtisaslara yiyələnməsi üçün keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilmişdir. Azərbaycanlı gənclərin hərbi peşəyə yiyələnməsi, eyni zamanda gələcəkdə müstəqil Azərbaycan Ordusunun milli ruhlu, vətənpərvər zabit korpusu ilə təmin edilməsi məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılıb. "Təhsil millətin gələcəyidir" deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə - 1993-2003-cü illərdə də bu sahənin inkişafına xüsusi qayğı ilə yanaşıb. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb.

Rektor bildirib ki, Ulu Öndər Heydər Əliyev məzunu olduğu, qürurla "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı Bakı Dövlət Universitetinə də hər zaman qayğı ilə yanaşıb. Ümummilli Liderin təhsil illəri və sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin bütöv bir mərhələsini təşkil edir.

Daha sonra Yeni Azərbaycan Partiyasının (YAP) Tərtər rayon təşkilatının sədri Eldar Əsədov "Ulu Öndər və Yeni Azərbaycan Partiyasının yaranma zərurəti", BDU-nun Beynəlxalq münasibətlər kafedrasının dosenti, YAP Yasamal rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev "Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur", Qarabağ Regional Təhsil İdarəsinin müdiri Gündüz Əbdülov "Heydər Əliyev və Azərbaycanın təhsil siyasəti", Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev zirvəsi", Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev "Azərbaycan mətbuatının inkişaf prosesində Heydər Əliyev irsi", İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Bayramov "Ulu Öndər Heydər Əliyev – milli qurtuluşumuzun memarı", Tarix fakültəsinin dosenti Azad Rzayev "Heydər Əliyevin siyasi portreti", İnformasiya və sənəd menecmenti fakültəsinin dosenti Knyaz Aslan "Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti", Tarix fakültəsinin müəllimi Anar Həmidov "Heydər Əliyev: Azərbaycanda yüksəkixtisaslı mütəxəssislərin hazırlanması və kadr siyasəti", İnformasiya və sənəd menecmenti fakültəsinin dosenti Rasim Süleymanov "Ulu Öndər Heydər Əliyev xarici nəşrlərdə" mövzularında çıxışlar ediblər. Çıxışlarda dahi liderin həyatı və fəaliyyətinin hər bir azərbaycanlı üçün nümunə olduğu, Azərbaycanın əldə etdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən nailiyyətlərin təməlində Ümummilli Liderin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun dayandığı vurğulanıb.

# "Bakı Dövlət Universitetinin fəxri məzunu - Heydər Əliyev" mövzusunda tədbir

***Aprelin 11-də Tarix və Filologiya fakültələrinin Tələbə Gənclər təşkilatlarının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Bakı Dövlət Universitetinin fəxri məzunu - Heydər Əliyev" mövzusunda tədbir keçirilib. Əvvəlcə Dövlət himni səsləndirilib.***

Filologiya fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov müstəqil Azərbaycanın qurucusu və memarı, BDU-nun ən böyük məzunu, Ulu Öndər Heydər Əliyevin zəngin və çoxşaxəli fəaliyyəti ilə bağlı məlumat verib. Qeyd edib ki, Ümummilli Liderin Azərbaycana rəhbərlik etməsindən sonra BDU-nun həyatında yeni mərhələ başlayıb. Universitetin 50 illik yubiley tədbirlərinə Ulu Öndər şəxsən rəhbərlik edib, dövlət başçısı kimi BDU-ya hərtərəfli qayğı göstərib. Bu diqqət və qayğı Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da davam edib.

Daha sonra Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru Nuru Məmmədov Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dövrlərdə BDU-ya göstərdiyi diqqət və qayğıdan bəhs edib, ölkəmizin elm və təhsil siyasətinin həyata keçirilməsində də misilsiz xidmətlərindən danışıb.

Filologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədr müavini Şüşəxanım Vəliyeva Ümummilli Lider Heydər Əliyevin banisi olduğu gənclər siyasətindən bəhs edib.

# "Heydər Əliyevin aqrar islahat modeli"

***Aprelin 13-də Ekologiya və torpaqşünaslıq fakültəsində "Heydər Əliyev İli" ilə bağlı Tədbirlər Planına uyğun olaraq aqrar və ekologiya sahələri üzrə ustad dərsləri keçirilib.***

Aqrar istiqamət üzrə növbəti ustad dərsi "Heydər Əliyev irsi və aqrar islahatların elmi-nəzəri, praktiki əhəmiyyəti" layihəsi çərçivəsində "Heydər Əliyevin aqrar islahat modeli" mövzusuna həsr olunub. Məruzəçi – 1997-2015-ci illərdə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri olmuş, BDU-nun Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının müdiri, akademik Qərib Məmmədov olub.

Akademik Qərib Məmmədov Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin ilk dövrlərində bazar iqtisadiyyatı və azad iqtisadi rəqabət mühitində vahid torpaq fondunun çoxmülkiyyətçilik (dövlət, bələdiyyə və xüsusi) şəraitində səmərəli istifadə edilməsi və mühafizəsinin təşkili sahəsində Ulu Öndərin həyata keçirdiyi aqrar-torpaq islahatının istiqamətlərini mərhələlər (1991-1996-cı, 1997-2007-ci, 2008-2015-ci və sonrakı dövr) üzrə təhlil edib, ümumxalq əhəmiyyətli təsərrüfatçılıq dəyərlərini qiymətləndirib.

Natiq vurğulayıb ki, ölkədə həyata keçirilən aqrar-torpaq islahatlarının müəllifi olan Ümummilli Liderin xüsusi yanaşması və diqqəti sayəsində 1,8 milyon hektardan çox qiymətli kənd təsərrüfatı torpağı 840 min ailəyə (3,5 milyon nəfərə) verilib. Bu istiqamətdə hüquqi-qanunvericilik bazası yaradılıb, nəticədə torpaq kateqoriyalarının - uqodiyalarının məqsədli təyinatı, hüquqi rejimi müəyyən edilib.

Məruzədən sonra Ulu Öndərin aqrar sahədəki islahatlarını əks etdirən film nümayiş olunub.

# BDU-da "Mir Cəlalın insanlıq fəlsəfəsi" adlı beynəlxalq elmi seminar keçirilib

***Aprelin 6-da BDU-da görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasının 115 illiyinə həsr olunmuş "Mir Cəlalın insanlıq fəlsəfəsi" adlı beynəlxalq elmi seminar keçirilib.***

Seminarın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, XX əsrin 30-cu illərindən bu günümüzə kimi nəhəng sənətkar, müdrik ziyalı, görkəmli ədəbiyyat adamı olan Mir Cəlalın yaradıcılığı parlaq bir şölə kimi ədəbiyyatımızı, mədəniyyətimizi, milli Azərbaycan bədii fikrini işıqlandırır. Mir Cəlal Paşayev ömrünün 50 ilini nadir istedadı və insanlığı ilə bəşəriyyətə, Azərbaycan milli mədəniyyətinə, ədəbiyyatına, xalqına xidmətə həsr edib. Onun çoxşaxəli, zəngin bədii yaradıcılığı milli nəsrimizin ən parlaq, mənalı, seçilən nümunələrindəndir. Mir Cəlalın pedaqoji fəaliyyətinin xüsusiyyətləri Azərbaycan maarifçiliyinin, pedaqoji fikir tarixinin ən dəyərli, qiymətli tarixi faktlarındandır. Böyük ədib ömrü boyu elmi-pedaqoji fəaliyyətindən uzaqlaşmayıb. O, ötən əsrin 30-cu illərindən tutmuş 80-ci illərin əvvəllərinə qədər Azərbaycan ziyalılar ordusunun ərsəyə gəlməsi işində başqa həmkarları ilə birlikdə əzmlə çalışıb. Azərbaycan elmi fikrinin ən görkəmli şəxsiyyətlərinin formalaşmasında fəal iştirak edib. Həmçinin, bir çox klassik və müasir sənətkarların yaradıcılıq xüsusiyyətlərinin dərindən öyrənilməsində, ədəbiyyat tariximizə dair ciddi tədqiqat əsərlərinin yazılmasında, elmi-tənqidi fikrimizin düzgün inkişafında onun əvəzsiz xidmətləri olub. Rektor qeyd edib ki, Mir Cəlal görkəmli ədəbiyyatşünas alim, ədəbiyyat tarixçisi, nəzəriyyəçisi, yüzlərlə ədəbi-tənqidi məqalənin və dərsliyin müəllifidir. Onun N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, M.Ş.Vazeh, A.Bakıxanov, Q.Zakir, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, S.Vurğun, C.Cabbarlı, S.Rüstəm və bir çox klassiklər haqqında tədqiqatları, məqalələri, monoqrafik əsərləri ədəbiyyatşünaslıq elmimizin parlaq, əvəzsiz elmi səhifələrindəndir. Ana dilinin zənginliyinə arxalanan sənətkarın olduqca sadə, yığcam, dolğun və təsirli dili var. Böyük vətənpərvər yazıçı elmi yaradıcılığında da millilik və azərbaycançılıq amilini həmişə nəzərə alıb, xalqın milli dəyərlərinin unutdurulduğu bir zamanda böyük Azərbaycan şairi Füzulidən və onun ana dilində yaratdığı əsərlərinin poetik qüdrətindən bəhs edib. Ana dilinə məhəbbət hisslərini geniş anlamda ifadə edib. Yazıçı xalqına ləyaqətlə xidmət etməyə çalışan milli duyğulu, sədaqətli insan obrazları yaratmağa müvəffəq olub, dövrün mənzərəsini ustalıqla əks etdirib. Mir Cəlal BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, Universitetin əvəzolunmaz pedaqoqlarından biri kimi öz məktəbini yaradıb, neçə-neçə nəhəng ədəbiyyatşünas-alim yetişdirib. Hazırda onun yetirmələri doğma fakültəsində Mir Cəlal məktəbini ləyaqətlə davam etdirirlər.





Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Mir Cəlalın əsərləri ilə böyüyən nəsillər üçün görkəmli yazıçının əbədi yaşayacağını bildirib. O qeyd edib ki, Mir Cəlal göründüyü kimi olan, əsərlərində yazdığı, təbliğ etdiyi dəyərləri ilə yaşayan, öz həyatı ilə nümunə olan yazıçı idi: "Mir Cəlal heç vaxt ədəbiyyatın maraqlarını dövrün maraqlarına qurban verməyib. Məhz ona görə də onun əsərləri günümüzdə də rahatlıqla çap edilir. Ötən əsrin 37-ci ilində çoxları dövrün konyukturasına uyanda Mir Cəlal Füzulidən yazırdı, XX əsrin başlanğıcındakı ədəbi məktəbləri araşdırırdı. Mir Cəlal böyük müəllim idi, minlərlə gəncin yetişməsi onun ən böyük xidmətlərindəndir".

Qazaxıstan Prezidentinin müşaviri Malik Otorbayev isə çıxışında Mir Cəlalı "türk dünyasının böyük ədibi" adlandırıb. O qeyd edib ki, görkəmli yazıçının "Bir gəncin manifesti" əsəri keçmiş Sovet İttifaqının ən məşhur romanlarından, Mərdan, Bahar, Sona obrazları isə gənclər üçün örnək idi. O, türk dünyasının Mir Cəlal kimi ədibləri ilə fəxr etdiyini diqqətə çatdırıb və türkdilli dövlətlər arasında mədəniyyət sahəsində əlaqələri daha da dərinləşdirmək üçün şair və yazıçıların üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri Ədibə Paşayeva isə qeyd edib ki, Mir Cəlalın 115 illik yubiley tədbirlərinin belə bir mötəbər seminarla BDU-da başlaması təsadüfi deyil. Çünki BDU Mir Cəlal üçün doğma məkan idi. Ədibə Paşayeva bildirib ki, XX əsr Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi olan Mir Cəlal böyük yazıçı, alim, pedaqoq və insan idi. Mir Cəlalın zəhmət, istedad üzərində qurulan həyatı, fəaliyyəti gənclər üçün nümunə sayılır.

Daha sonra Qırğızıstan Milli Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət xadimi, şair Nurlan Kalıbekov, Saxa (Yakutiya) Yazıçılar Birliyi sədrinin müavini Qavril Androsov, İraq türkmənlərinin tanınmış nümayəndəsi, şair-publisist, ictimai xadim Şəmsəddin Kuzəçi, "Arxangelsk vilayətinin Azərbaycan diasporu" regional ictimai təşkilatının sədri Tərlan Qasımov çıxışlarında Mir Cəlalın Azərbaycan ədəbiyyatı tarixindəki əvəzolunmaz mövqeyindən və elmimizə verdiyi dəyərli töhfələrdən bəhs ediblər.

# Böyük alim, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı – Zərifə xanım Əliyeva

***28 aprel Azərbaycan tibb elminin inkişafına misilsiz töhfələr vermiş, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anadan olmasından 100 il ötür.***

*"Azərbaycan xanımının mənəvi dəyərlərini özündə təcəssüm etdirən Zərifə xanım bir qadın, bir həyat yoldaşı, bir ana, bir həkim, bir alim, bir ictimai xadim olaraq elə sağlığında əfsanəviləşməyi bacarıb və daşıdığı bu titulları mərhəmət, şəfqət, humanizm kimi ali hisslərlə bütövləşdirərək əsl insanlıq zirvəsinə yüksəlib".*

*Ümummilli Lider Heydər Əliyev*

Akademik Zərifə Əliyevanın yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün həyat və mənəviyyat dərsi, kamillik, müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvan Muxtar Respublikasında anadan olub. 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professoru, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.

Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologii" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Zərifə Əliyeva 1980-ci ildə Azərbaycan əməkdar elm xadimi, 1981-ci ildə isə SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş ilk qadındır. Azərbaycanda tibbi deontologiyanın inkişafında böyük rolu olan akademik Zərifə Əliyevanın tibbi etika və deontologiyaya dair baxışları "Yüksək əqidə" (həkimlik etikası) əsərində əks olunub.

Zərifə Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

O, 1985-ci il aprelin 15-də Moskva şəhərində əbədiyyətə qovuşub. Zərifə xanım Əliyeva bütün bu elmi-ictimai fəaliyyətləri ilə yanaşı, həm də vəfalı ömür-gün yoldaşı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən yaxın silahdaşı, Vətən üçün layiqli övladlar böyütmüş ləyaqətli Ana idi. O, müstəqil Azərbaycanın son 200 ildə ən böyük qələbəsini qazanan, Müzəffər Ali Baş Komandan, Ulu Öndərin layiqli davamçısı İlham Əliyev kimi böyük dövlət xadimini Azərbaycan xalqına bəxş edib.

Görkəmli ziyalı, elm xadimi, gözəl insan, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana, bənzərsiz vətəndaş olan Zərifə Əliyevanın əziz xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq!

# Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib



(Əvvəli 1-ci səhifədə)

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, BDU-nun Filologiya fakültəsinin Rus ədəbiyyatı tarixi kafedrasının müdiri Ədibə Paşayeva, Milli Aviasiya Akademiyasının kafedra müdiri, Xalq şairi Nəriman Həsənzadə, Milli Məclisin üzvü, BDU-nun Filologiya fakültəsinin Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Azərbaycan Dillər Universitetinin rektoru, akademik, Xalq yazıçısı Kamal Abdulla, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli, AMEA Nizami adına Ədəbiyyat İnstitutunda XX əsr ədəbiyyatı şöbəsinin müdiri Şirindil Alışanlı, BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti Məti Bayramlı çıxışlarında Mir Cəlalın Azərbaycan ədəbi-bədii fikrində və elmində özünəməxsus yerinu vurğulayıb, zəngin insani keyfiyyətlərindən söz açıblar.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib. Bölmə iclasları "Mir Cəlal fenomeni", "Mir Cəlalın ədəbiyyatşünaslıq görüşləri", "Mir Cəlalın bədii yaradıcılığı: ideya-məzmun istiqamətləri, mövzu və janr xüsusiyyətləri", "Mir Cəlal əsərlərinin dili", "Mir Cəlal gənc tədqiqatçıların gözü ilə" mövzularına həsr olunub.

Konfrans aprelin 19-da Gəncə və Qazax şəhərlərində davam edib. BDU-nun tələbələri arasında böyük yazıçı və alim Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə elan edilmiş qısa hekayə müsabiqəsinin qalibləri Gəncədə görkəmli yazıçının ev-muzeyində elan və təltif olunublar. Onun adını daşıyan Gəncə şəhər 39 nömrəli orta məktəbdə, daha sonra Qazax Müəllimlər Seminariyasında tədbirlər keçirilib.

# "Akademik Zərifə Əliyeva - 100" adlı kitab sərgisi



BDU-nun Elmi Kitabxanası akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş kitab sərgisi təşkil edib. "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin həmmüəllifi, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi olan akademik Zərifə Əliyevanın elmi irsi alimin doğum günündə sərgilənir. Sərgidə həmçinin, akademik Zərifə xanım Əliyeva haqqında görkəmli şəxslərin fikirləri, onun haqqında yazılmış kitablar, həyat və fəaliyyətinə dair nəşrlər, biblioqrafik göstəricilər, foto albomlar da nümayiş olunur.

BDU-da akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş Respublika konfransında da nümayiş olunan sərgi konfrans iştirakçılarının, habelə qonaqların böyük marağına səbəb olub.

# BDU-nun professor-müəllim heyəti Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyini ziyarət edib



***Aprelin 19-da BDU-nun professor-müəllim heyəti Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində görkəmli ədibin Gəncə şəhərində yerləşən ev-muzeyini ziyarət edib.***

BDU-nun rektoru Elçin Babayev görkəmli alim, pedaqoq Mir Cəlal Paşayevin xatirəsini özündə yaşadan bu muzeyi ziyarət etməyin mənəvi borc olduğunu bildirib. Rektor diqqətə çatdırıb ki, BDU tərəfindən böyük yazıçı və alimin 115 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər keçirilir. BDU-nun tələbələri arasında Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə qısa hekayə müsabiqəsi elan olunub. BDU əməkdaşları və tələbələri "Ədibin evi"ni ziyarət ediblər. Aprelin 18-də isə BDU-da böyük yazıçı və alimin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib: "BDU-nun nüfuzlu professoru, sevimli müəllimi kimi xatirələrdə daim yaşayan Mir Cəlal müəllim həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir". Bu, Mir Cəlal müəllimin ailəsinə, övladlarına olan məhəbbətinin təzahürü idi".

Sonra rektor Elçin Babayev ev-muzeyinə görkəmli ədibin az nüsxədə mövcud olan "Seçilmiş hekayələr (1940)", "Sevinc (1950)" kitablarını və "Bestcomp" şirkətinin dəstəyi ilə alınan kömpüter dəstini hədiyyə edib.

ADA Universitetinin rektoru Hafiz Paşayev Mir Cəlal irsinin öyrənilməsi və təbliği istiqamətində BDU-nun təşəbbüsünü alqışladığını, tələbələrin də bu işdə yaxından iştirakından sevinc hissi keçirdiyini bildirib. Hafiz Paşayev qeyd edib ki, Mir Cəlalın ailəsi həm də Bakı Dövlət Universiteti, buradakı minlərlə tələbəsi idi.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Mir Cəlal Paşayevin ədəbi irsinin bütün nəsillər üçün əsl məktəb olduğunu vurğulayıb.

Daha sonra BDU-nun tələbələri arasında böyük yazıçı və alim Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə elan edilmiş qısa hekayə müsabiqəsinin nəticələri elan olunub. Müsabiqədə I yerə Filologiya fakültəsinin IV kurs tələbəsi Fidan Hüseynova, II yerə II kurs tələbəsi Nuridə İsmayılova, III yerə Hüquq fakültəsinin II kurs tələbəsi Nurlanə Şirinova layiq görülüblər.

Mexanika-riyaziyyat fakültəsinin II kurs magistrantı Fatimə Musayeva və Filologiya fakültəsinin I kurs tələbəsi Aytac Salahlı müsabiqənin xüsusi mükafatını qazanıblar.

Müsabiqədə I yerin qalibi Fidan Hüseynova öz hekayəsini oxuyub.

Daha sonra BDU rektoru muzeyin "Xatirə kitabı"na ürək sözlərini yazıb.

# "Mir Cəlal Paşayev-115" adlı sərgi kitab sərgisi

***Aprelin 27-də BDU-nun Elmi Kitabxanası görkəmli yazıçı, böyük ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasının 115 illiyinə həsr olunmuş kitab sərgisi təşkil edib.*** Sərgidə ədibin elmi məqalə, publisistik-tənqidi yazı, hekayə və irihəcmli əsərlərindən ibarət 80-ə yaxın nəşr, dərslik və dərs vəsaiti, o cümlədən onun haqqında yazılan kitablar, biblioqrafik göstəricilər nümayiş olunub.

Sərgidə müxtəlif dillərdə olan kitablar sırasında yazarın həyatda ikən işıq üzü görən, onun böyük zəhmətinin bəhrəsi olan "Füzulinin poetik xüsusiyyətləri" (1940), "Radosğ" (1950), "Yaşıdlarım" (1955), "Füzuli sənətkarlığı" (1958), "Şəfəqdən qalxanlar" (1972), "Silah qardaşları" (1974) və s. əsərləri yer alıb. Sərgidə böyük yazıçının 1938-ci ildə yazdığı və ona təkcə Azərbaycanda deyil, ölkə xaricində də şöhrət qazandıran "Bir gəncin manifesti" romanının müxtəlif dillərdə və illərdə nəşr olunmuş nüsxələri də nümayiş olunub. Həmçinin alimin qızı, BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri, professor Ədibə Paşayevanın Elmi Kitabxanaya hədiyyə etdiyi kitablar da sərgidə yer alıb. BDU-da



Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransında da nümayiş olunan sərgi konfrans iştirakçılarının, habelə qonaqların böyük marağına səbəb olub.

# "Heydər Əliyev və multikulturalizm"

***Aprelin 13-də Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və multikulturalizm" adlı tədbir keçirilib.***

Tədbirdə açılış nitqi ilə çıxış edən Hüquq fakültəsinin dekanı Zaur Əliyev müasir Azərbaycan dövlətinin memarı, Ulu Öndər Heydər Əliyevin quruculuq və xilaskarlıq missiyası haqqında ətraflı məlumat verib. Tədbirdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun mövzu ilə bağlı mühazirəsi dinlənilib. Rəvan Həsənov öncə Mərkəzin fəaliyyəti, həyata keçirdiyi layihələr haqqında geniş məlumat verib. İcraçı direktor vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın multikulturalizm modelinin siyasi banisidir. O, Azərbaycan xalqının əsrlər ərzində təşəkkül tapmış multikulturalizm dəyərlərinə ən yüksək hüquqi siyasi qiymət verib, multikultural cəmiyyətin formalaşdırılmasında müstəsna rol oynayıb. Hazırda bu siyasət Ulu Öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində multikulturalizm dövlət siyasətinin ən önəmli istiqamətlərindən birinə çevrilib. Təsadüfi deyil ki, Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində də ölkəmizdə yaşayan müxtəlif xalqların yüzlərlə, minlərlə nümayəndəsi iştirak edib, ərazi bütövlüyümüzün bərpası naminə canlarından keçməyə hazır olduqlarını sübuta yetiriblər.

Tədbirin sonunda Rəvan Həsənov tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anım günüdür

***Aprelin 15-də Azərbaycan tibb elminin inkişafına misilsiz töhfələr vermiş, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anım günüdür.***

Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvan Muxtar Respublikasında anadan olub. 1947-ci ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professoru, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.



Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologii" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Zərifə Əliyeva 1980-ci ildə Azərbaycan əməkdar elm xadimi, 1981-ci ildə isə SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş ilk qadındır. Azərbaycanda tibbi deontologiyanın inkişafında böyük rolu olan akademik Zərifə Əliyevanın tibbi etika və deontologiyaya dair baxışları "Yüksək əqidə" (həkimlik etikası) əsərində əks olunub.

Zərifə Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

O, 1985-ci il aprelin 15-də Moskva şəhərində əbədiyyətə qovuşub.

Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə sahələrində, eləcə də ictimai-siyasi həyatda misilsiz xidmətlərinə görə xalqımızın qəlbində, ölkəmizin tarixində görkəmli alim, nümunəvi, qayğıkeş pedaqoq, şəfqətli həkim, nurlu Azərbaycan xanımı kimi qalacaq, daim anılacaq, onun şərəfli ömür yolu və zəngin irsi həmişə örnək olacaq.

Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla anırıq. Allah rəhmət eləsin!

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş Respublika konfransı keçirilir

***Aprelin 14-də BDU-da akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş Respublika konfransı keçirilib.***

Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, bu il Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan, oftalmologiya sahəsi üzrə ilk qadın akademik, tibb elmləri doktoru, professor, gözəl insan, fədakar ana Zərifə Əliyevanın 100 illik yubileyidir. Onun Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətləri ölçüyəgəlməzdir. Görkəmli alim vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparıb. Eyni zamanda, "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsini öyrədib, onlara diqqət və qayğı ilə yanaşıb. Zərifə xanım Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologii" (Moskva) jurnalı redaksiya heyətinin üzvü olub. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülüb. Professor Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın olub. Apardığı elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilərək, 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilib. Görkəmli alim, fəal ictimai xadim Zərifə xanım Əliyeva xidmətlərinə görə orden və medallarla təltif olunub, Azərbaycanın Əməkdar elm xadimi kimi yüksək fəxri ada layiq görülüb.






Rektor bildirib ki, görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə Əliyeva eyni zamanda müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Görkəmli alim, xeyirxah insan, qayğıkeş ana olan Zərifə Əliyevanın adı xalqımızın yaddaşında əbədi yaşayacaq.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri Hicran Hüseynova qeyd edib ki, akademik Zərifə Əliyeva tibb elminə yüksək, zəngin erudisiyaya malik novator alim kimi daxil olub, böyük məktəb yaradıb. Yüksək intellektual səviyyəsi, sərrast düşüncələri, səmimi, xoş münasibəti onu hamıya sevdirirdi. Yüksək səviyyəli peşəkar kimi neçə-neçə insanın gözünə işıq verib, onları həyata qaytaran akademik Zərifə Əliyeva həmişə xüsusi qayğıya ehtiyacı olan insanlara böyük diqqətlə yanaşırdı. Onun xatirəsini sadə xalqın yaddaşında ehtiramla yaşadan həm də bu mərhəmət və şəfqətdir. Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycan qadınının problemlərinə böyük diqqət yetirməsində Zərifə xanımın şəxsi nümunəsi də mühüm rol oynayırdı. Güclü şəxsiyyət və dərin zəka sahibi Zərifə xanım Ulu Öndərə etibarlı mənəvi dayaq idi.

Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktorunun I müavini Hicran Namazova, Patologiya refraksiya və oftalmoerqonomika şöbəsinin rəhbəri Rasim Hacıyev, BDU-nun Biologiya fakültəsinin dekanı Afət Məmmədova, akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun direktoru Ulduz Haşımova, BDU-nun Botanika və bitki fiziologiyası kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Elşad Qurbanov, Azərbaycan Respublikası Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyasının sədri, Azərbaycan Tibb Universitetinin Endokrinologiya kafedrasının professoru Tamfira Əliyeva çıxışlarında akademik Zərifə Əliyevanın zəngin mənəvi keyfiyyətləri, oftalmologiya elminin inkişafındakı xidmətlərini diqqətə çatdırıblar. Qeyd olunub ki, Zərifə Əliyevanın keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Sonra akademik Zərifə Əliyevanın həyat yolu və elmi fəaliyyətindən bəhs edən video nümayiş olunub.

Konfransın açılış mərasiminin sonunda BDU-nun akademik Zərifə Əliyeva adına məqsədli təqaüdünün qalibi elan olunub. BDU-nun Biologiya fakültəsinin Biotexnologiyalar ixtisası üzrə III kurs tələbəsi Şəms İslamova təhsildəki yüksək nəticələrə görə bu mükafata layiq görülüb. Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

# BDU-nun Qazax filialında görüş



***Aprelin 19-da BDU-nun rektoru Elçin Babayev, ADA Universitetinin rektoru Hafiz Paşayev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov, Azərbaycan Sahibkarlar Konfederasiyasının sədri Məmməd Musayev, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Universitetin professor-müəllim heyəti BDU-nun Qazax filialında olublar.***

BDU rəhbərliyi və qonaqlar filialda tədris və elmi fəaliyyətlə maraqlanıb, dərs və təcrübə otaqlarına baxış keçiriblər.

# Qazax Şəhidlər kompleksini ziyarət



***Aprelin 19-da BDU-nun rektoru Elçin Babayev, ADA Universitetinin rektoru Hafiz Paşayev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov, Azərbaycan Sahibkarlar Konfederasiyasının sədri Məmməd Musayev, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Universitetin professor-müəllim heyəti Qazaxda Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış xatirə kompleksini ziyarət ediblər.***

Əbədi məşəl önünə gül dəstələri qoyulub, bütün şəhidlərimizin unudulmaz xatirəsi hörmət və ehtiramla anılıb.

# Qazax Müəllimlər Seminariyasında görüş

***Aprelin 19-da Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Qazax Müəllimlər Seminariyasında görüş keçirilib.***

Seminariyanın baş məsləhətçisi Yeganə Göyüşlü bildirib ki, ADA Universiteti 2021-ci ilin may ayında "Bir müəllimin manifesti" adlı layihə təşəbbüsü ilə çıxış edərək, milli təhsil sistemimizin başlanğıc nöqtəsi hesab olunan Qazax Müəllimlər Seminariyasının təlim-tədris ənənələrini yaşatmaq üçün onun tarixi binasının bərpasını və təhsil missiyasını yerinə yetirib: "Qazax Müəllimlər Seminariyası istər Cümhuriyyət, istər də sovetləşmə dövrlərində bütün fənlərin tədrisinin ana dilində mütərəqqi üsullarla aparıldığı köklü təhsil ocağı kimi Azərbaycanda elmin, maarifin və mədəniyyətin inkişafına misilsiz töhfələr verib. Hətta 1920-ci ildən seminariyanın nəzdində qızlar qrupu da açılıb. 1925-ci ildən seminariya Qazax Pedaqoji Texnikumuna çevrilib və fəaliyyətini 1959-cu ilədək davam etdirib. ADA Universitetinin "Bir müəllimin manifesti" təşəbbüsü çərçivəsində maarifçilik tariximizin qürurlu ünvanlarından olan Qazax



Müəllimlər Seminariyasının binasının bərpa edilməsi ilə onun yenidən, müasir təhsil üsulları səviyyəsində fəaliyyəti təmin olunacaq".

Görüşdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev bildirib ki, Qazax Müəllimlər Seminariyasının bərpası Azərbaycan təhsilinin inkişafına mühüm xidmət göstərəcək. Qazax Müəllimlər Seminariyası ADA Universiteti tərəfindən bərpa edilərək yenidən öz tarixi missiyasını davam edəcək, burada bir əsr əvvəl yandırılan elm işığını daha geniş yayacaq və yeni nəsil maarifçilər yetişdirəcək. Hafiz Paşayev qeyd edib ki, təhsilin inkişafına xidmət edən belə layihələr digər regionlarda da reallaşdırılmalıdır. O, bu istiqamətdə BDU ilə birgə əməkdaşlıq layihələrinin keçirilə biləcəyini vurğulayıb.



BDU-nun rektoru Elçin Babayev seminariyanın müasir görkəmini almasında böyük rol oynadığına görə ADA Universitetinin rektoru, professor Hafiz Paşayevə minnətdarlığını bildirib. Rektor diqqətə çatdırıb ki, professor Hafiz Paşayevin rəhbərliyi ilə Qazax Müəllimlər Seminariyasının tarixi binasının bərpası, 1918-1920-ci illərdə çap edilmiş "Azərbaycan" qəzeti və "Vətən dili" dərsliyinin latın qrafikasında nəşrləri, "Bir müəllimin manifesti" kimi dəyərli layihələr milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xidmət edir.

Tədbirin sonunda BDU tələbələrinin ifasında Mir Cəlal Paşayevin "Müalicə" hekayəsindən səhnəcik və Universitetin Mədəniyyət-yaradıcılıq Mərkəzinin təqdimatında ədəbi-bədii kompozisiya nümayiş olunub.

# BDU rəhbərliyi Gəncə Şəhidlər xiyabanını ziyarət edib

***Aprelin 19-da BDU-nun professor-müəllim heyəti görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Gəncə şəhərindəki Şəhidlər xiyabanını və Vətən müharibəsində şəhid olmuş BDU məzunlarının məzarlarını ziyarət edib.***

Vətənin azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi hörmət və ehtiramla yad olunub, məzarları üzərinə gül dəstələri qoyulub.

# Hüquq fakültəsi və Ədliyyə Nazirliyi "Heydər Əliyev mütərəqqi məhkəmə-hüquq islahatlarının müəllifidir" adlı konfrans keçirib

***Aprelin 19-da Hüquq fakültəsi ilə Ədliyyə Nazirliyinin "Heydər Əliyev İli" çərçivəsində birgə Fəaliyyət Planına uyğun olaraq Sumqayıt Məhkəmə Kompleksində "Heydər Əliyev mütərəqqi məhkəmə-hüquq islahatlarının müəllifidir" mövzusunda konfrans keçirilib.***

Tədbirdə Ədliyyə Nazirliyinin məsul işçiləri, Sumqayıt apellyasiya və birinci instansiya məhkəmələrinin hakimləri, məhkəmə aparatının əməkdaşları, BDU-nun Hüquq fakültəsinin və Sumqayıt Dövlət Universitetinin rəhbərliyi, tələbələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Liderin Sumqayıt şəhərində abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib. Həmçinin gənclər Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən maraqlı ekspozisiyalarla tanış olub, Ümummilli Liderə həsr olunan filmə baxıblar.

Sumqayıt Məhkəmə Kompleksində davam edən tədbirdə Ədliyyə Nazirliyi İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova bildirib ki, Ümummilli Liderin hər kəsə örnək olan tükənməz irsi daim öyrənilməli və ondan bəhrələnilməlidir. Bugünkü tədbirin məqsədi məhz Heydər Əliyevin dühası ilə bərqərar olmuş məhkəmə-hüquq sisteminin fəaliyyəti və aparılan islahatlar barədə tələbələri məlumatlandırmaqdır.

Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayev çıxışında Ulu Öndərin müasir müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılmasında rolunu qeyd edib, dahi rəhbərin təməlini qoyduğu və ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə aparılan ardıcıl tədbirlər və yeniliklər barədə tələbələri məlumatlandırıb, Sumqayıt Məhkəmə Kompleksinin inşasının bu islahatların mühüm tərkib hissəsi olduğunu bildirib.

BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev Ədliyyə Nazirliyi ilə sıx əməkdaşlığı, "Heydər Əliyev İli" çərçivəsində keçirilən birgə tədbirlərin tələbələr üçün faydasını qeyd edib, ölkəmizdə hüquq elminin və təhsilinin Ulu Öndərin rəhbərliyi dövründə yeni inkişaf dövrünə qədəm qoyduğunu, Ümummilli Liderin Hüquq fakültəsinə xüsusi qayğısını, milli, o cümlədən hüquqşünas kadrlarının yetişdirilməsində əvəzsiz rolunu vurğulayıb.

Daha sonra Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri İlqar Dəmirov və Ruhiyyə Əsgərova Ümummilli Liderin müəllifi olduğu üçpilləli yeni məhkəmə sistemi barədə ətraflı məlumat veriblər.

Tədbirdə sual-cavab sessiyası keçirilərək tələbələri maraqlandıran suallara aydınlıq gətirilib, maraqlı diskussiyalar aparılıb.

Konfrans çərçivəsində gənclər Sumqayıt Məhkəmə Kompleksində yaradılan müasir şəraitlə, o cümlədən ictimai və inzibati zonalar, məhkəmə iclas zalları, hakimlər üçün və digər otaqlarla, "Elektron məhkəmə" informasiya sistemi və tətbiq edilən rəqəmsal innovasiyalarla yaxından tanış olublar.

# "Müstəqil Azərbaycanın memarı" adlı Beynəlxalq elmi konfransın plenar iclası keçirilib

***Aprelin 24-də "Gülüstan" sarayında Bakı Dövlət Universiteti, Yeni Azərbaycan Partiyası (YAP) və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycanın memarı" adlı Beynəlxalq elmi konfransın plenar iclası keçirilib.***

Milli Məclisin (MM) deputatı, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü Nizami Cəfərovun moderatorluğu ilə baş tutan plenar iclasda əvvəlcə MM-in Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri Hicran Hüseynovanın "Ulu Öndər Heydər Əliyev qüdrətli Azərbaycan dövlətinin memarıdır" mövzusunda məruzəsi dinlənilib. Komitə sədri qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən şəxsiyyətdir. Ulu Öndər Heydər Əliyevin misilsiz tarixi missiyası ölkəmizin müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə özünü daha qabarıq şəkildə göstərib. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması məhz Ulu Öndərin adı ilə bağlıdır.




BP-nin Yaxın Şərq və Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti, BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi Bəxtiyar Aslanbəyli "Heydər Əliyev və enerji siyasəti" mövzusunda məruzəsində isə qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasını, ölkənin davamlı inkişafını təmin edib. Mühəndislik möcüzəsi sayılan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ideya müəllifi də məhz Ulu Öndər Heydər Əliyevdir: "Ümummilli Liderin enerji siyasəti sahəsindəki ideyaları hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağı üzrə hasilatın ilk günündən bu yana təxminən 189 milyard kubmetr qaz hasil edilib. "Əsrin müqaviləsi" imzalanandan bəri "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan toplam 4,2 milyard barel neft hasil olunub. Həmin müqavilə üzrə Azərbaycan Dövlət Neft Fonduna bu illər ərzində 167 milyard ABŞ dolları məbləğində vəsait daxil olub. Mənfəət neftinin satışından əldə olunan gəlirlərin ölkə iqtisadiyyatı, sosial və digər sahələrin inkişafı üçün əhəmiyyəti böyükdür".

Sonra MM-in Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri Ziyafət Əsgərov "Hüquqi dövlət və hüququn aliliyi anlayışlarının müqayisəli təhlili" mövzusunda məruzə edib. Bildirib ki, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində Ümummilli Liderin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilib.

İsrailin Key Pedaqoji İnstitutunun prorektoru Mark Applebaum "Azərbaycan-İsrail əlaqələrinin tarixinə səyahət" adlı məruzəsində bildirib ki, Azərbaycan və İsrail arasında qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələri yalnız iqtisadi-strateji faydaya deyil, həm də ənənəvi tarixi-mədəni köklərə əsaslanır. Azərbaycan və İsrail xalqları daim tarixin çətin dönəmlərində qarşılıqlı anlaşmaya, tolerantlığa əsaslanan birgəyaşayış nümunəsini bütün dünyaya nümayiş etdirə biliblər. O, Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın quruculuğundakı xidmətlərini vurğulayıb, onun İsrail-Azərbaycan arasında ikitərəfli əməkdaşlığın, dostluq əlaqələrinin qurulması və möhkəmlənməsindəki xidmətlərindən bəhs edib. Xüsusi vurğulayıb ki, İsrail və Azərbaycan əlaqələri iqtisadiyyatla yanaşı, siyasi və hərbi sahədə də uğurla davam etdirilir.

Plenar iclasda MM-in komitə sədri Sadiq Qurbanov "Heydər Əliyev – zamandan uca insan", MM-in deputatları - BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü Nizami Cəfərov "Heydər Əliyevin azərbaycançılıq məfkurəsi", BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov "Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu kimi", Gəncə Dövlət Universitetinin prorektoru Pərvin Kərimzadə "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə Gəncənin sosial-iqtisadi və ictimai-mədəni inkişafı", Elman Nəsirov "Heydər Əliyevin milli azadlıq missiyası: strateji baxış və liderliyin təhlili", BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Heydər Əliyev: iqtisadi tərəqqiyə və hərbi qələbəyə aparan böyük siyasət", YAP-ın Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə "Heydər Əliyevin siyasətinin Azərbaycanın davamlı inkişafına təsiri: sistematik baxış", BDU-nun Qafqaz xalqları tarixi kafedrasının müdiri İradə Hüseynova "Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvəti, əbədiyaşar dəyəridir", BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin direktoru, Şifahi xalq ədəbiyyatı kafedrasının müdiri Səhər Orucova "Heydər Əliyev siyasətində milli-mənəvi dəyərlər" mövzusunda məruzələr ediblər.

Qeyd edək ki, konfrans öz işini bölmə iclasları ilə BDU-da davam etdirib. Ümumilikdə 3 bölmədə 110-dan çox məruzə dinlənilib.

# Elmi-tədqiqat üzrə birgə fəaliyyətin təşkili ilə bağlı Anlaşma Memorandumu imzalanıb

***Aprelin 27-də elmi-tədqiqat üzrə birgə fəaliyyətin həyata keçirilməsinə dair Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.***

Mərasimdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, memorandumun imzalanmasında məqsəd elmi-tədqiqat institutları və ali təhsil müəssisələrinin qarşılıqlı fəaliyyətinin təşkili, mövcud problemlərin və həll yollarının birgə müəyyənləşdirilməsidir.

Emin Əmrullayev qeyd edib ki, ilkin olaraq pilot şəkildə Bakı Dövlət Universiteti (BDU) və 5 elmi-tədqiqat institutunun birgə fəaliyyətinin təşkili nəzərdə tutulub. Memorandumun beşillik imzalandığını vurğulayan nazir yekunda birgə fəaliyyətin nəticələrinin təhlil ediləcəyini və buna uyğun addımlar atılacağını diqqətə çatdırıb.

Elm və təhsil naziri əlavə edib ki, məqsəd universitetlərimizin beynəlxalq reytinq göstəricilərinin yüksəldilməsi, onların elmi-tədqiqat mərkəzlərinə çevrilməsidir.



Daha sonra Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Ülkər Səttarova "Memorandumun məqsədi və tərəflər üçün yaradacağı imkanlar" adlı təqdimatla çıxış edib.

Mərasimdə iştirak edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bildirib ki, bu əməkdaşlıq ölkəmizin beynəlxalq arenada layiqli iştirakına imkan yaradacaq.

Fizika İnstitutunun baş direktoru Arif Həşimov, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun baş direktoru Dilqəm Tağıyev, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru İradə Hüseynova memorandumun imzalanmasının əhəmiyyətini diqqətə çatdırıblar.

Sonda Bakı Dövlət Universiteti və 5 elmi-tədqiqat institutu arasında memorandum imzalanıb.

Anlaşma Memorandumunu BDU-nun rektoru Elçin Babayev, Fizika İnstitutunun baş direktoru Arif Həşimov, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru İradə Hüseynova, Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun baş direktoru Dilqəm Tağıyev, Radiasiya Problemləri İnstitutunun baş direktoru İslam Mustafayev imzalayıblar.

# "Gənc istedadlar" liseyində "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı konfrans keçirilib

***Aprelin 27-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı şagird elmi-praktik konfransı keçirilib.***



Konfrans Dövlət himninin ifa olunması və Ümummilli Lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Liseyin direktoru Arif Bağırov Ulu Öndərin zəngin və çoxşaxəli fəliyyəti, dövlətçiliyimiz uğrunda apardığı mübarizə haqqında məlumat verib. O bildirib ki, Ulu Öndərin gənclər qarşısında qoyduğu ən əsas tələbi məhz təhsil ilə bağlı idi. Təhsil prosesinin yüksək olması, gənclərin bilikli, azərbaycançılıq ideologiyası əsasında yetişməsi, müəllim-pedoqoji heyətin hazırlığının müasir tələblərə cavab verməsi, məktəblərin maddi-texniki təminatı Ulu Öndərin daim diqqət mərkəzində olub.

Sonra Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib.

Liseyin musiqi müəllimi Kəmalə Əliyeva, tarix metodbirləşməsinin sədri Kifayət Şamilova çıxışlarında dahi şəxsiyyətin təhsilə, milli-mənəvi dəyərlərə yüksək qiymət verdiyini vurğulayıblar.

Yuxarı sinif şagirdləri Aydan Qəribli, İbrahim İbrahimzadə, Fərhad Kərimbəyli, Selcan Kərimli, Azər İsmayılzadə Ümummilli Liderin həyatı və fəaliyyəti ilə bağlı təqdimatlarla çıxış ediblər.

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bədii qiraət və rəsm müsabiqəsinin qalibləri seçilib

***BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzi və Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) birgə təşkilatçılğı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş BDU tələbələri arasında bədii qiraət və rəsm müsabiqəsinin qalibləri seçilib.***

Aprelin 13-də müsabiqənin final mərhələsinə keçən tələbələrin rəsm və bədii qiraət nominasiyaları üzrə baxışı keçirilib. Final mərhələsini giriş sözü ilə açan Mədəniyyət-yaradıcılıq Mərkəzinin direktoru Akif Səmədov qeyd edib ki, müsabiqənin məqsədi



Ümummilli Liderin zəngin həyat və fəaliyyətini dərindən öyrənmək, BDU tələbələrində milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət aşılamaqdır.

Rəsm müsabiqəsində Kimya fakültəsinin tələbəsi Səbinə İbrahimxəlilova I yer, Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbəsi Səbinə Şirinova II yer, Fizika fakültəsinin tələbəsi İlqarə Mirzəyeva isə III yerin qalibi olub. Fizika və Jurnalistika fakültəsinin tələbələri isə fərqlənmə diplomları ilə təltif ediliblər.

Bədii qiraət janrı üzrə müsabiqənin finalçılarından Jurnalistika fakültəsinin magistr tələbəsi Hüseyn Cabbarlı I, Filologiya fakültəsinin tələbəsi Fidan Mədətova II, Şərqşünaslıq fakültəsinin tələbəsi Eltac Abbasov isə III yerə layiq görülüb. Müsabiqənin finalçılarından 5 tələbə isə uğurlu çıxışına görə fərqlənmə diplomları ilə təltif olunub.

Hər iki nominasiya üzrə I yer üçün 500, II yer üçün 300, III yer üçün isə 200 manat pul mükafatı verilib.

# BDU-da Bakı və region gənclərinin I elmi konfransı

***Aprelin 27-də Bakı Dövlət Universiteti, "Azərbaycan Elm və İnnovasiya Könüllüləri"nin təşkilatçılığı, Gənclər Fondunun maliyyə dəstəyi ilə Bakı və region gənclərinin I elmi konfransı keçirilib.***

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov və Biologiya fakültəsinin dekanı Afət Məmmədova konfransın işinə uğurlar arzulayıb, Azərbaycanda və BDU-da gənclər, təhsil və elm siyasəti sahəsində həyata keçirilən layihələr, qazanılan uğurlar barədə məlumat veriblər.

Sonra layihə rəhbəri - Biologiya fakültəsinin IV kurs tələbəsi Züleyxa Qənbərova qalibi olduğu qrantın əldə olunması və bu vaxta kimi görülən işləri diqqətə çatdırıb. O, layihənin "İdeyanı reallaşdır - 2022" qrant müsabiqəsində "Gənc lider" kateqoriyası üzrə qalib olduğunu bildirərək, tezislərin yazılma qaydaları barədə təlimlər keçirildiyini və 5 müxtəlif istiqamət üzrə 9 universitetin (BDU, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Qərbi Kaspi Universiteti, Azərbaycan Dillər Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Xəzər Universiteti) tələbələri, Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Botanika İnstitutu, Fizika İnstitutu, Neft-Kimya Prosesləri İnstitutu, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun gənc tədqiqatçıları tərəfindən göndərilən 107 materialın konfransın proqramına daxil edildiyini qeyd edib.



Təşkilat komitəsinin sədri Sevinc Hümbətova, layihənin təşkilatçısı Əfsanə Surxaylı, konfransın proqram komitəsinin üzvləri Ələkbər Hüseynzadə və Orxan Güləhmədov öz çıxışlarında Gənclər Fondu tərəfindən maliyyələşdirilən belə layihələrin Azərbaycan gənclərinin inkişafına yardım etdiyini bildiriblər.

Daha sonra konfransın dəvət olunmuş məruzəçisi Kim Jiseok "Triboelektrik Nanogeneratorlar (TENGs): köhnə və tanınmış fenomendən yeni enerji toplama ideyası" ("Triboelectric Nanogenerators (TENGs): a novel energy harvesting idea from an old and well-known phenomenon") mövzusunda çıxış edərək yeni növ enerji toplamaq strategiyasına malik TENG və onlar əsasında hazırlanan sistemlər haqqında məlumat verib.

# BDU-nun 4 komandası 6 layihə ilə "TEKNOFEST-2023"də təmsil olunub

***Aprelin 27-də BDU-nun tələbələrdən ibarət 4 komandası 6 layihəsi ilə Türkiyədə keçirilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalının final mərhələsində çıxış edib.***

Festivalın bu gün başlayan final mərhələsində 2 kateqoriya üzrə ("Yaşıl texnologiyalar" və "Ağıllı nəqliyyat" kateqoriyaları) çıxış edəcək "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)", "REB-Pack (dörd fərqli təbii şərait və qaynaqdan (günəş, külək, alov və su axını) elektrik enerjisi əldə etməyə imkan verən bel çantası)", "CMC-Vessel (ferromaqnit və fotokatalitik maddələrin istifadəsi əsasında dəniz suyunu avtomatik olaraq çirkləndiricilərdən təmizləyə biləcək robot)" adlı üç layihə ilə çıxış edib.

BDU-nun "Humantek" komandası "Ağıllı damla sulama sis-




temi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)", "G-21" komandası "Zərərvericilərə qarşı dronlarla mübarizə (ultrasəs dalğaları şüalandıra bilən, termik kameralarla təchiz olunmuş dronlar vasitəsilə əkinçilikdə gəmiricilərə qarşı effektiv və təhlükəsiz mübarizə aparmağa imkan verən avtomatik sistem)", "FALCON TECH" komandası isə "Qapalı məkanlarda yanğınları ilkin mərhələdə zərərsizləşdirən ağıllı robotun yaradılması (qapalı məkanlarda baş verən yanğınların ilkin mərhələdə tez bir zamanda müəyyən edilməsini və yanğın sahəsinin genişlənmədən söndürülməsini təmin edən robot)" adlı layihələrlə BDU-nu təmsil ediblər.

Qeyd edək ki, aprelin 27-də İstanbulda başlayan festival mayın 1-dək davam edib. Festivala dünyanın 107 ölkəsindən 154 mindən artıq komanda və 600 mindən çox iştirakçı qatılıb.



# "Ünsiyyətin uğur strategiyaları" mövzusunda infosessiya

***Aprelin 28-də "Paşa Həyat Sığorta" şirkəti Bakı Dövlət Universitetinin tələbələrinə "Ünsiyyətin uğur strategiyaları" mövzusunda infosessiya keçib.***

Əvvəlcə tələbələrə BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun fəaliyyəti haqqında məlumat verilib. Qeyd olunub ki, "Paşa Həyat Sığorta" şirkətinin BDU ilə əməkdaşlığının əsasında Universitet tələbələrinin əmək bazarına adaptasiyasının daha səmərəli yollarını göstərmək durur.

Şirkətin əməkdaşı Vəli Məmmədov tələbələri ünsiyyət anlayışı, ünsiyyətin növləri, informasiya mübadiləsi haqqında məlumatlandırıb. Əsas diqqəti işgüzar ünsiyyətdə davranış modelləri və taktikaları üzərində cəmləyərək, tələbələrin gələcək karyera qu-



ruculuğunda onların əhəmiyyətindən, uğura nail olmaqda mühüm rolundan danışıb.

Tədbirdə BDU tələbələrinin təhsil keyfiyyətinin yaxşılaşdırılması məqsədilə şirkət tərəfindən müxtəlif istiqamətlərdə təcrübə mübadiləsi sessiyalarının keçirilməsi, istehsalat və ya könüllü təcrübə proqramlarının təşkili məsələləri də müzakirə olunub.

Sonra iştirakçıların mövzu ətrafında çoxsaylı sualları cavablandırılıb.

# BDU-da Hirş indeksinə verilən tələblərə dair müzakirələr keçirilib

***Aprelin 7-də İnformasiya və sənəd menecmenti fakültəsində "Akademik məlumat bazaları ilə əməkdaşlıq və Hirş indeksinə verilən tələblər" mövzusunda elmi seminar keçirilib.*** Tədbirdə çıxış edən BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov bildirib ki, hazırda ali məktəblərin, elmi-tədqiqat mərkəzlərinin qarşısında duran əsas tələblərdən biri akademik məlumat bazaları ilə əməkdaşlığın artırılması və beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması məsələsidir. Natiq bu sahədə qabaqcıl dünya təcrübəsinin öyrənilməsi və tətbiqinin zəruriliyini qeyd edib, elmi seminarda təqdim olunan mövzunun xüsusi aktuallıq kəsb etdiyini vurğulayıb. Sonra BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazımi mövzu ilə bağlı məruzə edib. Pərviz Kazimi qlobal informasiya mühitinin yaratdığı şəraitdə akademik məlumat bazaları ilə əməkdaşlığın qayda və üsulları, həmçinin Hirş indeksinə verilən tələblər barədə ətraflı məlumat verib. Akademik bazaların arxivləndirmə və indeksləndirmə fəaliyyətindən bəhs edən araşdırmaçı müxtəlif qiymətləndirmə meyarları, onların tətbiq üsulları, elmi informasiyanın idarə olunması, səmərəliliyinin təhlili kimi aktual məsələləri şərh edib. Məruzədə elmi müəssisə, elmi jurnal, müəllif və məqalələrin indeksləşməsi, eyni zamanda reytinqlərin müəyyən olunması kimi problemlərin təhlili də geniş yer alıb. Son illər BDU-nun bu sahədə böyük uğurlar əldə etdiyini vurğulayan Pərviz Kazımi qeyd edib ki, artıq Universitetin Hirş indeksi 56-ya yüksəlib: "Müqayisə üçün qeyd edim ki, 2018-ci ildə bu göstərici 35-ə bərabər idi".




Beynəlxalq akademik məlumat bazalarının iş prinsipləri əsasında təqdim edilən məruzə geniş diskussiyalara səbəb olub, məruzəçiyə çoxsaylı suallar ünvanlanıb.

# Yeni media mühitində jurnalist kontentinə verilən tələblər araşdırılıb

***Aprelin 11-də Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının doktorantı və saathesabı müəllimi Səbinə İzzətlinin "Yeni media mühitində jurnalist kontentinə verilən tələblər" mövzusunda elmi seminarı keçirilib.*** Kafedra müdiri, dosent Xatirə Hüseynova doktorantı təqdim edib, elmi seminarın mövzusu ilə bağlı iştirakçıları məlumatlandırıb.

Səbinə İzzətli mediadaxili çevriliş adlandırılan konvergensiya prosesində texnoloji yeniliklərin jurnalist məhsulunun məzmununa təsiri məsələlərinə toxunub. Bu inkişafın müsbət təsirləri ilə yanaşı, riskləri də vurğulanıb. Doktorant çıxışında bildirib ki, rəqəmsal media platformaları jurnalistikaya yeni yayım formatları gətirib ki, bu da birbaşa jurnalistin istehsal etdiyi məzmuna təsir göstərir. Dəyişən jurnalistikanın təməl prinsipləri deyil, kontentin özüdür. Texnoloji yeniliklər jurnalistikanın irəliləməsinə, peşə olaraq varlığını qorumasına kömək etsə də, bəzən təməl prinsiplər unudulur, incə cizgi adlandırılan faktlılıq arxa plana keçir və saxta kontent gündəmə gəlmiş olur. Məruzəçi həmçinin yeni media mühitində kontentlə bağlı mövcud proqnozları da diqqətə çatdırıb, müəllimlərin mövzu ilə bağlı suallarını cavablandırıb.



# "Davamlı inkişaf məqsədləri və təhsil sahəsində tətbiqləri"

***Aprelin 11-də Beynəlxalq əlaqələr üzrə prorektoru, coğrafiya elmləri namizədi, dosent Şahin Pənahov Biologiya fakültəsində "Davamlı inkişaf məqsədləri və təhsil sahəsində tətbiqləri" adlı elmi seminar keçirib.***

Məruzəçi Davamlı İnkişaf Məqsədləri (DİM), hədəfləri və göstəriciləri, bəşəriyyətin qlobal, regional, milli və lokal səviyyələrdə qarşılaşdığı müxtəlif problemlərin həlli üçün hazırlanmış konsepsiya və 2016-2030-cu illəri əhatə edən inkişaf proqramı haqqında məlumat verib. O qeyd edib ki, hazırda qlobal göstəricilər sisteminə 231 DİM göstəricisi daxildir. Təkrarlanan göstəricilər də daxil olmaqla DİM göstəricilərinin ümumi sayı 248-dir. Daha sonra məruzəçi iştirakçıları Davamlı İnkişaf Məqsədlərinin təhsil və bioloji müxtəlifliklə bağlı məsələləri, Azərbaycanda DİM-in tətbiqi sahəsində qazanılmış nailiyyətlər və qarşıda duran çağırışlar barədə məlumatlandırıb. Şahin Pənahov dayanıqlı inkişaf üzrə yeni milli strategiya, proqram və fəaliyyət planlarının hazırlanmasının, yüksək keyfiyyətli, aktual, etibarlı və daha müfəssəl məlumatların əldə olunması məqsədilə statistika potensialının gücləndirilməsinin, milli şərait və prioritetlərə uyğun olaraq vətəndaş cəmiyyəti, dövlət və özəl sektor, habelə digər maraqlı tərəflərin cəlb edilməsi ilə səmərəli, sistemli və müntəzəm qiymətləndirmə mexanizminin formalaşdırılmasının zəruriliyini vurğulayıb.

Sonda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# Dövlət Vergi Xidməti BDU tələbələrinə təlim keçib

***Aprelin 14-də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) BDU-da tələbələr üçün təşkil olunan sayca ikinci "Yay Təcrübə Proqramı" çərçivəsində proqramın təqdimatını keçirib və vergi mövzusunda təlimlər təşkil edib.***

Təqdimatlarda DVX-nin İnsan resursları baş idarəsinin əməkdaşları tərəfindən tələbələrə keçiriləcək təcrübə proqramı haqqında ətraflı məlumat verilib, proqramda iştirak üçün qeydiyyat prosesi və seçim mərhələləri barədə zəruri qeydlər çatdırılıb. Təqdimatdan sonra DVX-nin Tədris Mərkəzi tərəfindən tələbələr üçün "Vergi öhdəlikləri və onların yerinə yetirilməsi" və "Vergi məsuliyyəti nədir?" mövzuları üzrə təlimlər keçirilib.

Xatırladaq ki, "Yay Təcrübə Proqramı"na qeydiyyat cari ilin aprel ayının 30-na qədər davam etdirilir. Müraciət aşağıdakı linkə keçməklə mümkündür:

# "Atom enerjisi: rifah, yoxsa faciə?"

***Aprelin 14-də Sosial elmlər və psixologiya fakültəsində "Atom enerjisi: rifah, yoxsa faciə?" adlı tədbir keçirilib.***

Fakültə dekanı Rövşən Cavadov tələbələrə atom enerjisinin müsbət və mənfi tərəfləri ilə bağlı məlumat verib. Qeyd edib ki, atom enerjisindən dinc məqsədlərlə istifadə insanların rifahının yaxşılaşdırılmasına, müharibə məqsədləri üçün istifadə isə bəşəriyyətin məhvinə səbəb ola bilər.

BDU-nun Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrasının müdiri, professor İsmayıl Əliyev isə bildirib ki, nüvə (atom) enerjisi atom nüvələrinin bölünməsi və ya birləşməsi nəticəsində nüvə reaksiyası zamanı yaranan olduqca səmərəli enerjidir. Atom nüvəsindən əldə edilən enerjinin miqdarı digər üsullarla alınan enerjinin miqdarından daha çox olur. Az miqdarda radioaktiv atom kütləsindən istifadə etməklə daha çox enerji əldə edilir. Məsələn, 1 kq radioaktiv urandan alınan enerji 200 ton kömürdən alınan enerjiyə bərabərdir.

İsmayıl Əliyev diqqətə çatdırıb ki, İkinci Dünya Müharibəsi bitdikdən sonra bəşər sivilizasiyası müharibəyə qədər mövcud olmuş sivilizasiyadan kəskin dərəcədə fərqlənib. O, nüvə silahının yaradılmasını bu dəyişikliyin çoxsaylı səbəblərindən biri kimi qiymətləndirib: "Xirosima və Naqasakiyə atılan atom bombaları, Çernobıl və Fukusima AES-lərində baş verən fəlakətlər insanları həmişə narahat edir. Müasir insanlar yaxşı başa düşürlər ki, dünya bir neçə dəqiqə ərzində məhv ola bilər, nüvə müharibəsinin başlanması dünyanın sonunu gətirə bilər. Hazırda dünyada mövcud olan doqquz nüvə ölkəsində Rusiyada 6850, ABŞ-da 6450, Fransada 300, Çində 280, Böyük Britaniyada 225, Pakistanda 150, Hindistanda 140, İsraildə 80, Şimali Koreyada 20 olmaqla, ümumilikdə 14 495 nüvə başlığı var. Bu arsenal eyni vaxtda istifadə olunarsa, 100 min və daha çox əhalisi olan 4500 şəhərin hamısını asanlıqla məhv etmək olar. İkinci Dünya Müharibəsindən bu günə kimi dünyada 2 mindən çox nüvə silahı sınaqdan keçirilib".

Nüvə (atom) enerjisindən həm də elektrikləşdirmə məqsədi ilə istifadə olunduğunu deyən İsmayıl Əliyev dünyada ilk AES-in 1954-cü ildə keçmiş SSRİ-də (Obninsk şəhəri) işə salındığını, hazırda dünyanın 31 ölkəsində 439 nüvə elektrik reaktorunun olduğunu bildirib. Radioaktiv tullantılar yaxşı idarə olunduğu halda atom enerjisi kifayət qədər təmiz enerji mənbəyi sayılır. Bu enerji növündən istifadə atmosferdə çirkləndirici qazların həcminin azalmasına və qlobal istiləşmənin artmamasına kömək edir.

Sonda İsmayıl Əliyev tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# MİQ imtahanlarının nəticələri müzakirə olunub

***Aprelin 5-də Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsi tərəfindən 2022-ci il üzrə Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanlarının nəticələrinin analitik təhlilinə dair müzakirə təşkil olunub.*** Görüşlərin əsas məqsədi pedaqoji kadr hazırlığı, MİQ imtahanlarında məzunların əldə etdikləri nəticələri ali təhsil müəssisələri ilə birgə müzakirə etmək, təklifləri dinləməkdir.

Müzakirələr nazirliyin İnsan resursları şöbəsi tərəfindən pedaqoji kadr hazırlayan əsas ali təhsil müəssisələrində ardıcıl surətdə təşkil olunur.



BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov əmək bazarının tələblərinə cavab verən, yüksəkixtisaslı kadrların hazırlanmasının BDU-nun əsas prioritetlərindən olduğunu qeyd edib, tədris və elm sahəsində son dövrlər həyata keçirilən yeniliklər barədə məlumat verib. O, MİQ imtahanlarının nəticələrinin müzakirəsinin əhəmiyyətini vurğulayaraq, bunun gələcək fəaliyyətdə nəzərə alınacağını bildirib. Sonra nazirliyin İnsan resursları şöbəsinin məsləhətçisi Ülvi İsmayılov mövzu üzrə təqdimatla çıxış edib, fənlər üzrə statistik məlumatları iştirakçıların nəzərinə çatdırıb. MİQ imtahanlarının nəticələrinin təhlilinə əsasən, BDU məzunlarının ilk sıralarda yer aldığı qeyd olunub.

Maraqla qarşılanan təqdimatdan sonra professor-müəllim heyətinin çoxsaylı sualları cavablandırılıb, pedaqoji kadr hazırlığı ilə bağlı qarşıda duran hədəflər müzakirə olunub, analitik təhlilin nəticələrinin gələcək qəbul və tədris planlarının tərtibində önəmli rol oynayacağı vurğulanıb.

# Ekologiya və torpaqşünaslıq fakültəsi Qusar-Qonaqkənd kadastr rayonunun ekoloji qiymətləndirməsini aparıb

***Aprelin 7-də Ekologiya və torpaqşünaslıq fakültəsində "Qusar-Qonaqkənd kadastr rayonu torpaqlarının ekoloji qiymətləndirilməsi" mövzusunda elmi seminar keçirilib. Seminarda Coğrafi ekologiya kafedrasının doktorantı Sənəm İsayevanın mövzu üzrə məruzəsi dinlənilib.***

Tədqiqatın əsas məqsədi Qusar-Qonaqkənd kadastr rayonu torpaqlarının ekoloji qiymətləndirilməsinin aparılması və mühafizəsi tədbirlərinin işlənib hazırlanmasıdır. Məqsədə nail olmaq üçün Qusar-Qonaqkənd kadastr rayonu ərazisinin müasir təbii-ekoloji şəraitinin öyrənilməsi; torpaq örtüyünün hərtərəfli tədqiqi əsasında kadastr rayonu ərazisinin torpaq xəritə-sxeminin dəqiqləşdirilməsi; ərazi torpaqlarının keyfiyyətcə qiymətləndirilməsinin aparılması; təshih əmsalları tətbiq etməklə açıq və yekun bonitet şkalalarının qurulması; açıq bonitet şkalası əsasında Qusar-Qonaqkənd kadastr rayonu torpaqlarının meşə və aqroistehsalat qruplaşdırılmasının aparılması və bonitet kartoqramının tərtib edilməsi; ərazi torpaqları üçün əlamətlərin təzahür dərəcələrinə görə xüsusi qiymətləndirmə şkalalarının tərtib edilməsi; ekoloji qiymətləndirilmənin aparılması və ekoloji-qiymət xəritəsinin tərtibi; kadastr rayonu torpaqlarından istifadənin səviyyəsinə təsir edən amillərin müəyyən edilməsi; tədqiqat ərazisi torpaqlarının səmərəli istifadəsi və mühafizəsinin təşkili, münbitliyin yüksəldilməsi yollarının işlənilməsi həyata keçirilib.

Qusar-Qonaqkənd kadastr rayonu torpaqlarının bonitet kartoqramı, ekoloji qiymətləndirilmə xəritəsi, ərazi torpaqlarından səmərəli istifadənin və mühafizəsinin konseptual sxemi kimi materiallar təbii ekosistemlərin tarazlığının bərpası və mühafizəsi, ekoloji təhlükəsizliyinin və davamlılığının təmin edilməsi, torpaq örtüyünün qorunması problemlərinin həllində həm nəzəri, həm də praktiki əsas kimi istifadə edilə bilər.

Ekoloji şəraitin qiymətləndirmə şkalalarını tətbiq etməklə Qusar-Qonaqkənd kadastr rayonu torpaqlarının ekoloji qiymətləndirilməsi aparılıb, ərazi torpaqlarının münbitliyinə təsir göstərən əsas məhdudlaşdırıcı amillər müəyyən edilib və torpaq yarımtiplərinin ekoloji balları hesablanıb. Kadastr rayonu ərazisi üzrə ən çox ekoloji balı yüksək dağlıq zona üzrə qaramtıl dağ-çəmən torpaqlar, alçaq və orta dağlıq zona üzrə tünd və adi dağ boz-qəhvəyi (şabalıdı) (93 bal) torpaqlar alıb. Aparılmış tədqiqatların yekunu olaraq Qusar-Qonaqkənd kadastr rayonu torpaq örtüyünün ekoloji-qiymət xəritəsi (1:100 000 miqyaslı) tərtib edilib.

Qusar-Qonaqkənd kadastr rayonu torpaqlarından istifadədə ekoloji şəraitə əsaslı təsir göstərən antropogen təsirlərin növləri (eroziya proseslərinin inkişafı, meşə ehtiyatlarının, torpaq münbitliyinin azalması, şorakətləşmə və s.) araşdırılıb. Müəyyən edilib ki, kadastr rayonu torpaqlarının 56,1%-i müxtəlif dərəcədə eroziyaya uğrayıb, dağ boz-qəhvəyi (şabalıdı) torpaqların 24,6%-i şorakətləşməyə məruz qalıb.

Qusar-Qonaqkənd kadastr rayonunda ekosistemin ekoloji təhlükəsizliyini və davamlılığını təmin etmək məqsədi ilə torpaq ehtiyatlarından səmərəli istifadə edilməsi və mühafizəsinin əsas istiqamətləri müəyyən edilib, müvafiq tədbirlər sistemi (eroziya əleyhinə tədbirlərin həyata keçirilməsi, meşələrin qorunması və artırılması, kənd təsərrüfatı yerlərindən istifadənin təkmilləşdirilməsi, tarlaqoruyucu meşə zolaqlarının salınması və s.) işlənib hazırlanıb.

# "Autizmli uşaqlarla sosial iş" mövzusunda elmi seminar

***Aprelin 17-də Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika kafedrasının təşəbbüsü ilə "Autizmli uşaqlarla sosial iş" mövzusunda elmi seminar keçirilib.*** Elmi seminarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2 saylı Uşaq Reabilitasiya Mərkəzinin direktoru, "House of Dreams" Cəmiyyətə İnteqrasiya Mərkəzinin təsisçisi Nərgiz Əliyeva, Mərkəzin direktoru, "Child with a future" Fondunun təmsilçisi, sosial inteqrasiya üzrə mütəxəssis Villiam Albert Peters, ABŞ-ın Adelfi Universitetində Xüsusi pedaqogika kafedrasının assistenti, təhsil elmləri doktoru Stiven Shore iştirak ediblər.

Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov bildirib ki, təhsildə sosial psixoloji yardım və korreksiyaedici təlim ixtisaslarında təhsil alan tələbələr üçün bu elmi seminarın böyük əhəmiyyəti olacaq. Çünki Stiven Shore və Villiam Albert Peters özləri də autizmdən əziyyət çəkirlər, bu sahədə onların böyük təcrübəsi var. "House of Dreams" Cəmiyyətə İnteqrasiya Mərkəzinin təsisçisi Nərgiz Əliyeva çıxışında qeyd edib ki, bugünkü görüş Sosial elmlər və psixologiya fakültəsi ilə səmərəli əməkdaşlığın əsasını qoymaqla yanaşı, tələbələrin autizmdən əziyyət çəkən insanlarla işləmək bacarıqlarına yiyələnmələrində önəmli rol oynayacaq.

ABŞ-ın Adelfi Universitetində Xüsusi pedaqogika kafedrasının assistenti, təhsil elmləri doktoru Stiven Shore valideynlərinin böyük fədakarlığı və güclü dəstəyi ilə bu xəstəliyə qalib gəldiyini bildirib. O, öz şəxsi təcrübəsi ilə bağlı tələbələrə məlumat verib və autizm xəstəliyinin öhdəsindən gəlmək üçün uşaqlarda müvafiq sosial bacarıqların formalaşdırılması yollarından danışıb.

Pedaqogika kafedrasının müdiri Ləzifə Qasımova isə diqqətə çatdırıb ki, autizmdən əziyyət çəkən mütəxəssislərin çıxışları nəticəsində tələbələr autizmli uşaqlara pedaqoji, yaradıcı işin inceliklərini, metod və texnologiyalarını, didaktik oyunların qaydalarını öyrənirlər.

# BDU və Türkiyənin Ege Universiteti astrofizika sahəsində əməkdaşlıq edəcəklər

***Aprelin 5-də Fizika fakültəsinin Astrofizika kafedrası ilə Türkiyənin Ege Universitetinin Elm fakültəsinin Astronomiya və kosmos elmləri bölümünün əməkdaşları arasında onlayn görüş keçirilib.***

Görüşdə BDU tərəfindən Fizika fakültəsinin Astrofizika kafedrasının müdiri, dosent Kəmalə Alışeva, kafedranın dosentləri Xıdır Mikayılov, Zahir Səmədov və Bayram Rüstəmov, Ege Universitetinin Elm fakültəsinin dekan müavini, professor Esin Sipahi, Astronomiya və kosmos elmləri bölümünün müdiri, professor Ömər Lütfi Dəyirmançı, professor Mutlu Yıldız, Ege Universiteti Rəsədxanasının müdiri, dosent Hasan Ali Dal iştirak ediblər.

Kəmalə Alışeva BDU ilə Türkiyənin ali məktəbləri arasında əlaqələrin genişləndiyini, son zamanlar qardaş ölkənin bir neçə universiteti ilə əməkdaşlıq müqavilələrinin imzalandığını və müxtəlif istiqamətlərdə ortaq layihələrin planlaşdırıldığını, tezliklə Ege Universiteti ilə də belə əməkdaşlığın qurulacağına ümid etdiyini vurğulayıb. Daha sonra o, BDU-nun Astrofizika kafedrası, burada yerinə yetirilən elmi-tədqiqat işləri haqqında məlumat verib.

Ege Universitetinin Elm fakültəsinin dekan müavini, professor Esin Sipahi elm, təhsil sahələrində əlaqələrin genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. O, BDU-nun Astrofizika kafedrası ilə birgə layihələrin, eləcə də gələcəkdə ikili diplom proqramlarının həyata keçirilməsində maraqlı olduqlarını nəzərə çatdırıb. Tədbir iştirakçıları əməkdaşlıq layihələrinin hər iki tərəf üçün faydalı olacağını qeyd ediblər.

# BDU-nun Astrofizika kafedrası: Aprelin 20-də 2023-cü ilin ilk Günəş tutulması baş verib

***2023-cü ilin ilk Günəş tutulması aprelin 20-də qeydə alınıb. BDU-nun Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, bu tutulma hibrid Günəş tutulması olub.*** Hibrid Günəş tutulması zamanı Yerin əyriliyi səbəbindən müşahidəçinin mərkəzi tutulma trayektoriyası boyunca yerindən asılı olaraq halqavari və ya tam Günəş tutulması müşahidə olunur. Əksər hallarda hibrid tutulmalar halqavari kimi başlayır, sonra tam tutulmaya keçir, daha sonra yenidən halqavari vəziyyətə qayıdır.

Tutulma hadisəsi aprelin 20-də Bakı vaxtı ilə saat 05:34:22-də başlayıb və 10:59:18-də sona çatıb. Tutulma hadisəsi 5 saat 25 dəqiqə davam edib.

Tutulmanın maksimumu 08:16:49-da olub. Tam tutulma hadisəsi isə 06:36:56-da başlayıb və saat 09:56:36-da qurtarıb. Tam tutulma prosesi 3 saat 19 dəqiqə 40 saniyə davam edib. Tutulma hadisəsi Cənub-Şərqi Asiya, Avstraliya, Sakit okean, Hind okeanı, Antarktidada müşahidə olunub. Tutulma Azərbaycan ərazisində müşahidə olunmayıb.

2023-cü ilin 2-ci Günəş tutulması isə oktyabrın 14-də baş verəcək.

# BDU tələbələri "Paşa Həyat Sığorta"nın "Aktuat saatı" adlı təlimində

***Aprelin 12-də BDU-nun bir qrup tələbəsi "Paşa Həyat Sığorta" şirkətinin "Aktuar saatı" təlimində iştirak ediblər.***

Təlim zamanı tələbələrə mövzu haqqında zəruri biliklər, həmçinin əmək bazarında aktuar ixtisaslı mütəxəssislərə olan tələbat barəsində məlumat verilib.

Əmək bazarının tələbləri və iş mühiti haqqında məlumat verən natiqlər sonda tələbələrin suallarını cavablandırıblar.

# “Əli və Nino” mağazalar şəbəkəsinin təsisçisi Nigar Köçərli BDU tələbələri ilə görüşüb

***Aprelin 5-də Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Maliyyə və menecment kafedrası “Uğur hekayəsi” adlı layihəyə başlayıb. Layihə çərçivəsində ilk görüş “Əli və Nino” mağazalar şəbəkəsinin və Milli Kitab Mükafatının təsisçisi Nigar Köçərli ilə keçirilib.***

BDU-nun məzunu olan Nigar Köçərli öz uğur hekayəsini və bu yolda qazandığı təcrübəni bölüşüb, tələbələrə biznes sahəsində mentorluq köməyini təklif edib. Həmçinin o, ölkədə kitab mədəniyyətinin formalaşması ilə bağlı təkliflərini səsləndirib, əsas oxucu kütləsinin 18-25 yaş arası gənclər olduğunu vurğulayıb.




Görüş interaktiv formada davam edib. Maraqlı sual verən tələbələrə Nigar Köçərli tərəfindən kitablar hədiyyə olunub. Görüşün sonunda fakültə dekanı Laçın Abışlı tərəfindən Nigar Köçərliyə təşəkkürnamə verilib.

# BDU-nun professoru Nəsiman Yaqublunun kitablarının təqdimatı keçirilib

***Aprelin 11-də Jurnalistika fakültəsi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Milli mətbuat tarixi kafedrasının professoru, tarix elmləri doktoru Nəsiman Yaqublunun yeni nəşr edilmiş “Şuşa ziyalıları: unudulmuş irs” və “Azərbaycan mətbuatı: gizli nəşrlər” kitablarının təqdimatı keçirilib.***



Fakültənin dekanı, Mətbuat Şurasının sədr müavini Vüqar Əliyev qonaqları salamlayıb, professor Nəsiman Yaqublunun nəşr etdiyi kitablarla bağlı əsas məqamları diqqətə çatdırıb və sözü alimə verib.

Professor Nəsiman Yaqublu bildirib ki, “Şuşa ziyalıları: unudulmuş irs” kitabında Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Hilal Münşi kimi görkəmli ziyalıların yazıları toplanıb. “Azərbaycan mətbuatı: gizli nəşrlər” kitabında isə ilk dəfə olaraq çar Rusiyası və sovet rejimi dövründə qadağan edilmiş Azərbaycan mətbuatı nümunələri ( qəzetlər, jurnallar, kitablar) oxuculara təqdim olunur.

Təqdimat mərasimində Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid və İdarə Heyətinin üzvləri, tanınmış ziyalılar, tədqiqatçılar, jurnalistlər, müəllim-tələbə heyəti iştirak edib.

Çıxış edən qonaqlar tarixi arxiv materialları əsasında işlənmiş bu kitabların mətbuat tarixinin inkişafındakı önəmindən bəhs ediblər. Tədbir tələbələrin ünvanladığı sualların cavablandırılması ilə yekunlaşıb.

# Jurnalistika fakültəsinin professor-müəllim və tələbə heyəti “Yeni Azərbaycan” qəzetində

***Jurnalistika fakültəsi Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycan mediası” mövzusunda silsilə tədbirlər keçirir. Azərbaycan Mətbuat Şurasında baş tutan ilk tədbirdən sonra Jurnalistika fakültəsinin professor-müəllim və tələbə heyəti aprelin 27-də “Yeni Azərbaycan” qəzeti redaksiyasında olub.***

Görüşdə “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Musayev bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan jurnalistikasının inkişafında hər zaman xüsusi yeri olan şəxsiyyətlərdəndir. Baş redaktor Heydər Əliyevin dövlət başçısı kimi imzaladığı müvafiq fərman və sərəncamların ölkə mətbuatının inkişafında mühüm hadisə kimi qiymətləndirildiyinə diqqət çəkib. Görüş zamanı Ümummilli Liderlə bağlı xatirələrini bölüşən baş redaktor Ulu Öndərin mətbuata və mətbuat işçilərinə xüsusi diqqət və qayğı ilə yanaşdığını, hər zaman jurnalistlərin yanında olduğunu bildirib.

Tədbirdə tələbələri maraqlandıran suallar da cavablandırılıb.

Daha sonra qonaqlar “Yeni Azərbaycan”ın internet televiziyasının fəaliyyəti ilə tanış olublar.

# BDU aliminin beynəlxalq tibb hüququ haqqında kitabı çap olunub

***Hüquq fakültəsinin Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının dosenti, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü, hüquq üzrə fəlsəfə doktoru Fatimə Hüseynovanın “Beynəlxalq tibb hüququ haqqında ümumi müddəalar” kitabı işıq üzü görüb.***

Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin baş redaktorluğu ilə dərc olunan kitab Azərbaycan Respublikasında beynəlxalq tibb hüququ haqqında ilk nəşrdir.

Sözügedən fundamental əsərdə beynəlxalq tibb hüququna və onun ayrı-ayrı institutlarına doktrinal anlayış verilir, tibb fəaliyyəti üzrə münasibətlərin və əlaqələrin hüquqi tənzimlənməsinin xüsusiyyətləri şərh edilir. Müasir dövrdə səhiyyə, təbabət və tibb sferasında baş verən qlobal inteqrasiya prosesləri fonunda əhalinin maariflənməsi, cəmiyyətdə hüquqi düşüncə və tibb mədəniyyətinin formalaşması baxımından kitab mühüm əhəmiyyətə malikdir. Kitabdan ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, tibbi hüquq elmi sahəsində çalışan mütəxəssislər, praktik işçilər və digər şəxslər faydalana bilərlər. Kitab BDU-nun Hüquq fakültəsinin 95 illiyinə həsr olunub.

# Tanınmış texnobloger Fərid Pərdəşünas tələbə-jurnalistlərə ustad dərsi keçib



***Aprelin 20-də Jurnalistika fakültəsində “Yeni media və kommunikasiya nəzəriyyəsi” dərsi çərçivəsində Mətbuat Şurasının İdarə Heyətinin üzvü, jurnalist və texnobloger Fərid Pərdəşünasla görüş keçirilib.*** III kurs tələbələri üçün nəzərdə tutulan ustad dərsində Fərid Pərdəşünas Vətən müharibəsi zamanı informasiya müstəvisində könüllü kimi göstərdiyi fəaliyyətdən, həmin vaxtlar erməni mediasında gündəmə çevrilən, müəllifi və təsisçisi olduğu "Tavush Bot" sosial şəbəkə platformasından danışıb. Ermənistan Müdafiə Nazirliyinin haqqında dəfələrlə açıqlama verməkməcburiyyətində qaldığı "Tavush Bot" adlı sosial şəbəkə proqramının, çoxsaylı texnologiya və startap layihələrinin müəllifi olan Fərid Pərdəşünas həmçinin rəhbərlik etdiyi “Technote Media Şirkəti”nin fəaliyyəti, məqsəd və məramı barədə tələbələrə məlumat verib.

Süni intellekt və onun imkanlarından da bəhs edən qonaq texnoloji savadlılıq və kibertəhlükəsizlik mövzularına da toxunub. Sonda interaktiv müzakirə aparılıb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Jurnalistika fakültəsində millət vəkili Bəhruz Məhərrəmovla görüş



***Aprelin 28-də Jurnalistika fakültəsində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Milli Məclisin deputatı Bəhruz Məhərrəmovla görüş keçirilib.***

Açılış nitqi ilə çıxış edən Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev bu cür tədbirlərin Ümummilli Liderin irsinin öyrənilməsində və gələcək nəsillərə Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasının çatdırılmasında böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, müstəqil Azərbaycan tarixində istiqlala gedən yoldan müstəqilliyin əldə olunmasına, suverenliyin qorunmasına qədər bütün proseslərin təməlində məhz Heydər Əliyev böyüklüyü dayanır. Bu mənada onun şəxsiyyətinə istinad və dahi liderin irsinin yaşadılması, bu çərçivədə 2023-cü ilin "Heydər Əliyev İli" kimi qeyd olunması ümummilli məsələdir. Çünki milli ideologiyamızın, azərbaycançılıq məfkurəsinin kökündə məhz Heydər Əliyev şəxsiyyəti dayanır. Günümüzdə də qüdrətli Azərbaycanın gücünün və imkanlarının qarantı istisnasız olaraq məhz dahi liderin siyasi kursudur.

Millət vəkili həmçinin Ulu Öndərin Azərbaycanda mətbuatın inkişafı sahəsində xidmətlərini xatırladıb və onun jurnalistlərin ən böyük dostu olduğunu vurğulayıb.

# BDU ilə İsrailin Holon Texnologiya İnstitutu arasında ikili diplom proqramının ilk məzunlarının buraxılış mərasimi

***Aprelin 28-də Bakı Dövlət Universitetinin İsrailin Holon Texnologiya İnstitutu ilə kompüter elmləri üzrə ikili diplom proqramının ilk məzunlarının buraxılış mərasimi keçirilib.***



Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Azərbaycan və İsrail arasında strateji əməkdaşlıq, dostluq, qardaşlıq əlaqələrinin olduğunu deyib. Azərbaycanda yaşayan yəhudi icması xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Təl-Əvivdə Azərbaycanın İsraildəki səfirliyinin rəsmi açılışı ölkələrimiz arasında əlaqələrin inkişafına yeni təkan verəcək. Rektor vurğulayıb ki, bu strateji əməkdaşlıq ticarət, təhlükəsizlik, mədəniyyət və təhsil kimi sahələri əhatə edir: "Bu əməkdaşlığın ən uğurlu nümunələrindən biri də Holon Texnologiya İnstitutu ilə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin kompüter elmləri üzrə ikili diplom proqramıdır. Proqramın əsas məqsədi kompüter elmləri sahəsində effektiv alqoritmlərin qurulması və təhlilinin müasir metodlarını, texnologiyalarını real sənaye məsələlərinin həllində tətbiq etmək bacarığına malik mütəxəssislər hazırlamaqdır. İkili diplom proqramı üzrə 15 tələbə təhsil alır. Onlardan 5-i bu gün məzun olur, qalan 10 tələbə isə təhsilini davam etdirir".

Elçin Babayev diqqətə çatdırıb ki, BDU ilə Holon Texnologiya İnstitutu digər sahələrdə, o cümlədən müasir dövrün tələblərinə cavab verən SABAH magistr proqramının hazırlanmasında da əməkdaşlıq edir. Proqram SABAH magistr proqramı tələbələrinin Holon Texnologiya İnstitutunda yay məktəbində iştirakını nəzərdə tutur, burada onlar İsrailin yüksək texnologiya parklarında təcrübə keçmək, yüksək texnologiyalar və İT sahəsi üzrə sənaye nümayəndələri ilə əlaqə saxlamaq imkanı əldə edəcəklər.

Holon Texnologiya İnstitutunun prezidenti, professor Eduard Yakubov isə qeyd edib ki, ikili diplom proqramı Azərbaycan ilə İsrail arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcək: "Bu tədbir tarixi bir dönəmə təsadüf edir. 100 il əvvəl Azərbaycanın dahi lideri Heydər Əliyev anadan olub. Bir neçə gün əvvəl isə İsrail öz müstəqilliyinin 75-ci ildönümünü qeyd edib. Bu proqram Azərbaycan və İsrail, eləcə də BDU ilə Holon Texnologiya İnstitutu arasında körpü rolunu oynadı. Holon Texnologiya İnstitutu dünyanın 35 ölkəsindən 130-dan çox universitetlə əməkdaşlıq edir, bu proqram onların arasında ən yaxşılarındandır. Biz tələbə mübadiləsini kimya, fizika, riyaziyyatın müxtəlif sahələri üzrə də apara bilərik".

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli ikili diplom proqramının məzunlarını təbrik edib. Bildirib ki, Azərbaycanla İsrail arasında əməkdaşlığın gələcək inkişafı üçün bu proqramın böyük əhəmiyyəti var.

Holon Texnologiya İnstitutunun İcraiyyə Komitəsinin sədri, Sənaye Riyaziyyatı İnstitutunun təsisçisi və baş direktoru Adir Pridor, Özbəkistan Elmlər Akademiyasının V.İ.Romanovski adına Riyaziyyat İnstitutunun direktoru Şafkat Ayupov, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin direktoru Əli Nağıyev, ikili diplom proqramının məzunu İlkin Kərimli çıxışlarında təhsil sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Bildiriblər ki, proqramın məzunları iki ölkənin təcrübəsindən faydalanaraq kompüter texnologiyaları sahəsində yeni biliklər əldə ediblər.

Tədbirdə BDU və Holon Texnologiya İnstitutu ilə bağlı təqdimatlar edilib. Sonra ikili diplom proqramının məzunlarına diplomlar təqdim olunub.

Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin təqdimatında bədii hissə ilə başa çatıb.

# Azərbaycanın müasir inkişafının coğrafi məsələlərinə dair Respublika elmi-praktik konfrans

***Aprelin 25-də Coğrafiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycanın müasir inkişafının coğrafi məsələləri: Böyük Qayıdış, qlobal inteqrasiya və regional inkişaf" mövzusunda tələbə, magistr və gənc tədqiqatçıların Respublika elmi-praktik konfransı keçirilib.***

Coğrafiya fakültəsinin TEC sədri İmran Bayramov Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı xidmətləri, uğurlu elm-təhsil siyasəti barədə məlumat verib. Sonra Coğrafiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin fəaliyyətini əks etdirən videoçarx təqdim olunub.

Coğrafiya fakültəsinin dekanı vəzifəsini icra edən, professor Məqsəd Qocamanov tələbə və gənc tədqiqatçıların elmi araşdırmalara marağının yüksək olmasına diqqət çəkərək, bu sahədə görülən işlər, tələbə elmi dərnəklərinin fəaliyyəti və elmlə təhsilin inteqrasiyasından söz açıb.

Fakültə Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, dosent Əfqan Talıbov konfransa Coğrafiya fakültəsi ilə yanaşı, BDU-nun digər fakültələri, ölkənin ali təhsil müəssisələri, elmi-tədqiqat institutları və xarici müəlliflərdən məqalə və tezislərin qəbul olunduğunu diqqətə çatdırıb.

Konfransın plenar iclasında Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimov, Hidrometeorologiya kafedrasının müdiri, dosent İmran Abdullayev, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent Saleh Nağıyevin çıxışları dinlənilib. Natiqlər Ulu Öndər Heydər Əliyevin siyasi kursundan, müstəqillik illərində Azərbaycan Respublikasının mütərəqqi inkişafından söz açaraq, müasir dövrdə qlobal inteqrasiya və regional inkişaf məsələlərinə toxunublar.

Sonra tələbə və magistrlərin məruzələri dinlənilib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin II kurs magistri Əmanət Abbaslı "Şuşa şəhərinin mövcud turizm potensialının inkişaf etdirilməsində problemlər və onların həllində animasiyanın rolu", BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin I kurs magistrləri Məlahət Qocayeva "Azərbaycanın ekoloji problemlərinin təhlili", Kəmalə Məmmədova "Lənkəran rayonunun əsas qida ehtiyatlarının qiymətləndirilməsi", III kurs tələbəsi Hökümə Orucova "Mineral resources and economical development of the territories freed from occupation" adlı məruzələrlə çıxış ediblər. Çıxışlarda Qarabağ və Şərqi Zəngəzurun təbii, mineral və xammal ehtiyatları, turizm potensialı, onların iqtisadiyyatın dayanıqlı inkişafına təsiri qiymətləndirilib. Həmçinin şəhər və kəndlərdə ətraf mühitə təsir edən amillər, onların qiymətləndirilməsi və ekoloji problemlərlə mübarizə tədbirləri barədə məlumat verilib, Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün regional əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Sonda "Ekvatordan Qütblərə" elmi-populyar jurnalının və "Azərbaycan coğrafiyası" kitabının təqdimatı keçirilib, konfransda fərqlənən iştirakçılara sertifikatlar təqdim olunub.

# BDU-da II Respublika elmi konfransı: "Yer qabığında gedən proseslər haqqında müasir təsəvvürlər"

***Aprelin 20-də Geologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Yer qabığında gedən proseslər haqqında müasir təsəvvürlər" mövzusunda II Respublika elmi konfransı keçirilib.***

Fakültənin dekanı Mamoy Mansurov bildirib ki, konfransın mütəmadi təşkil olunması tələbələrin gələcək elmi fəaliyyətinin stimullaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Konfransda Yer qabığında gedən proseslərin, baş verən dəyişikliklərin səbəblərinin aşkar olunması üçün müasir metodların öyrənilməsi müzakirə olunur.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Geologiya fakültəsinin TEC-in elmi rəhbəri, professor Nazim İmamverdiyev çıxışlarında Ulu Öndər Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında xidmətlərindən danışıb, konfransın işinə uğurlar arzulayıblar.

Sonra fakültə tələbələri Səfərbəy Ələkbərli, Nigar Niftullayeva, Aytən Bayramova, Cavid Quliyev, Xəyal Hüseynovun müxtəlif mövzular üzrə məruzələri dinlənilib.

Konfrans "Mineralogiya, geokimya və petrologiyanın müasir problemləri", "Filizəmələgəlmə nəzəriyyəsi və modelləri", "Hidrogeologiya və mühəndis geologiyasının müasir problemləri", "Seysmologiyanın problemləri" bölmələri üzrə öz işini davam etdirib. Bölmə iclaslarında faydalı qazıntı yataqlarının əmələgəlmə şəraiti, istismar yolları, ehtiyatın hesablanmasında müasir geoloji modelləşdirmə üsulları, yerin su ehtiyatları, yer qabığının seysmoaktiv sahələrinin tədqiqi müzakirə olunub.

# Kimya fakültəsində Aprel döyüşlərinin ildönümü qeyd olunub

***Aprelin 5-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Aprel döyüşlərinin ildönümü ilə əlaqədar tədbir keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov bildirib ki, Aprel döyüşləri Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazılan Vətən müharibəsində şanlı Qələbəmizin başlanğıcıdır. Aprel döyüşlərində düşmən üzərində qazanılan hərbi uğurlar xalqımızın böyük Qələbəyə inamını artırdı və 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu düşmənə qəti zərbə vuraraq torpaqlarımızı işğaldan azad etdi.

Tədbirdə Kimya fakültəsinin TGT sədr Əli Qədirli, III kurs tələbəsi Turanə Sadiqi, I kurs tələbəsi Dəniz Seydəliyeva Aprel döyüşlərinin xalqımızın vətənpərvərlik ruhunu alovlandırdığını bildirib, Vətən müharibəsində qələbə çalan Ordumuzun qəhrəman zabit və əsgərlərinin döyüş yolunun hər bir gəncimiz üçün örnək olduğunu qeyd ediblər.

Tədbirin sonunda Aprel döyüşlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

# BDU tələbələri minaların təhlükəsi barədə məlumatlandırılıb

*Aprelin 10-da "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyi BDU-nun professor-müəllim heyəti və tələbələri üçün maarifləndirici seminar keçirib.*

Birliyin sədri Hafiz Səfixanov Azərbaycan Respublikasının ərazisində mina və partlamamış hərbi sursatlar problemi barədə geniş təqdimatla çıxış edib. Təqdimatda mina və partlamamış hərbi sursatlar probleminin yaranma səbəbləri, bu problemlərin aradan qaldırılması üçün ANAMA, Müdafiə və Fövqəladə Hallar nazirlikləri və Dövlət Sərhəd Xidmətinin müvafiq qüvvələrinin gördüyü işlər, ölkədəki mina qurbanları ilə bağlı faktlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunub. Bu gün Azərbaycan işğaldan azad etdiyi ərazilərdə geniş quruculuq işləri həyata keçirir. Lakin bu işləri tam şəkildə həyata keçirmək üçün ən böyük maneə həmin ərazilərin erməni hərbi birləşmələri tərəfindən mina və partlamamış hərbi sursatlarla çirkləndirilməsidir. Təkcə Vətən müharibəsindən sonra keçən iki il ərzində 288 azərbaycanlı minaya düşüb, onlardan 50-si həyatını itirib. Mina təhlükəsindən qorunmaq üçün əhalinin bütün təbəqələri arasında maarifləndirmə işlərinin aparılması vacibdir.



Sonra keçmiş minatəmizləyən, mina partlayışı nəticəsində ciddi yaralanmış Süleyman Heydərov seminar iştirakçıları qarşısında çıxış edib. O, Ermənistanın Azərbaycana qarşı törətdiyi və əsasən dinc sakinləri hədəfə alan mina terrorunun bütövlükdə bəşəriyyət əleyhinə yönəlmiş hərbi cinayət, sülhə və sabitliyə ciddi təhlükə olduğunu deyib.

Seminarın sonunda sual-cavab sessiyası keçirilib.

# DOST Agentliyinin nümayəndə heyətinin BDU-nun Sosial iş ixtisasında təhsil alan tələbələri ilə görüşü



Aprelin 10-da DOST Agentliyinin nümayəndə heyəti Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş kafedrasının əməkdaşları, doktorant, magistrant və Sosial iş ixtisasında təhsil alan tələbələri ilə görüş keçirib.

Görüş tərəflər arasında imzalanmış anlaşma memorandumunun icrası üzrə Birgə Fəaliyyət Planı çərçivəsində baş tutub. Görüşdə DOST Agentliyinin Hüquq departamentinin müdiri Azər Rəhimov, DOST Xidmətləri departamentinin müdiri Aygün Musayeva, İnsan resurslarının idarə edilməsi departamentinin mudiri Leyla Hüseynova, BDU-nun Sosial elmlər və psixologiya fakultəsinin dekanı, dosent Rövşən Cavadov, Sosial iş kafedrasının müdiri, dosent Üzeyir Şəfiyev əməkdaşlığın istiqamətləri barədə çıxış ediblər.

Sonra tədbir iştirakçıları DOST Mərkəzinin fəaliyyəti, strategiyası, uğur hekayələri ilə bağlı təqdimatla tanış olublar.

Görüş qarşılıqlı fikir mübadiləsi və auditoriyanın suallarının cavablandırılması ilə davam edib.

# Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib



*Aprelin 13-də Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Güclü Lider, Güclü Azərbaycan” layihəsi çərçivəsində “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib.*

Yarış BDU TGT-nin nəzdində fəaliyyət göstərən “Price” xarici dillər klubunun təşəbbüsü ilə baş tutub. İştirakçılara BDU-da “Heydər Əliyev İli” çərçivəsində baş tutan və bundan sonra həyata keçiriləcək tədbir və müsabiqələr haqqında məlumat verilib, intellektual yarışın ingilis dilində keçirilməsinin tələbələrin dil biliklərinin təkmilləşdirilməsinə müsbət təsiri vurğulanıb.

Yarışda 9 komanda iştirak edib. Onlardan “Evolution” komandası I, “6-seat table” komandası II, “Crystal Gravity” komandası isə III yerə layiq görülüb.

Qaliblər müxtəlif diplom və sertifikatlarla təltif olunublar.

# Milli Debat Proqramı çərçivəsində BDU və AzMİU tələbələri arasında dostluq turniri



*Aprelin 18-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin Milli Debat Proqramının təşkilatçılığı ilə BDU və Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) “Gəl qaytar cavanlığımı” adlı klublararası debat dostluq turnirinin final və bağlanış mərasimi keçirilib.*

Tədbirdə Milli Məclisin deputatları Jalə Əhmədova və Naqif Həmzəyev, BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin sədri Ülviyyə Axundova və debatçılar iştirak ediblər.

Layihənin məqsədi iki universitetin debatçıları arasında əlaqələri gücləndirmək, debat mədəniyyətinin inkişafına və gənclərin natiqlik bacarıqlarının artırılmasına töhfə verməkdir.

Tədbir çərçivəsində turnirin final mərhələsinə vəsiqə qazanan “Yarı zarafat” və “Etiraz” komandaları arasında debat aparılıb.

Qrup və seçmə mərhələsi 8-9 aprel tarixlərində "Təhsil və səhiyyə xidmətləri hər kəsə ödənişsiz göstərilməlidir" mövzusunda keçirilən debatlarda Azərbaycan və rus bölmələri üzrə ümumilikdə 43 komanda, 150-dən çox gənc iştirak edib. Təcrübəli debat hakimlərinin qərarına əsasən, turnirin qalibləri Azərbaycan bölməsi üzrə “Etiraz” komandası, rus bölməsi üzrə isə "Şuşanın dağları" komandası olub.

Tədbirin sonunda finalçı və qalib komandalar, ən yaxşı natiqlər mükafatlandırılıb.

# BDU tələbələrinin istehsalat təcrübəsi başa çatıb

*Aprelin 19-da Ekologiya və torpaqşünaslıq fakultəsinin Ekologiya ixtisası üzrə təhsil alan IV kurs tələbələriin “Eko Monitorinq” MMC-də istehsalat təcrübəsi başa çatıb.*

Tələbələr təcrübə müddətində “Eko Monitorinq” MMC-nin ixtisaslaşdığı bütün sahələrlə tanış olublar. Tələbələrə istehsal, sosial, ticarət, ictimai iaşə və digər xidmət obyektlərində qanunvericiliklə tələb olunan ekoloji normativ sənədlərin hazırlanma qaydası, aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırma prosesi tədris olunub.

Onlar ətraf mühitin vəziyyətinə, insan sağlamlığına təbii və antropogen təsirlərin başvermə ehtimalı ilə yanaşı, “Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi” və digər ekoloji normativ sənədlər (Ekoloji pasport, “Təhlükəli tullantıların pasportlaşdırılması Qaydası”, Atıla Bilən Tullantı Həddi (ABTH), Buraxıla Bilən Axıntı Həddi (BBAH), “Atmosfer havasına atılan zərərli maddələrə dair” (2Tg) hesabat, rekultivasiya layihəsi və s.) barədə geniş məlumat əldə ediblər.

Təcrübə proqramının sonunda tələbələrdən Leyla Quliyeva “Eko Monitorinq” MMC-də işə qəbul olunub. Bildirilib ki, təcrübədə olan digər tələbələrin də “Eko Monitorinq” MMC-nin əməkdaşlıq etdiyi digər şirkətlərdə müvafiq sahə üzrə işlə təmin edilmələrinə dəstək göstəriləcək.

# BDU-nun tələbə jurnalistləri Hərb Tarixi Muzeyində



***Aprelin 11-də Jurnalistika fakültəsinin tələbələri Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiya ediblər.***

Fotojurnalistika dərsi çərçivəsində gerçəkləşdirilən ekskursiyada Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova, fənn müəllimləri Vüqar İbadov və Aygün Qurbanlının rəhbərliyi ilə fakültənin III kurs tələbələri iştirak ediblər.

Muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə gənc jurnalistlərlə görüşdən məmnunluğunu ifadə edib. Bildirib ki, iki mərtəbədən ibarət muzey Azərbaycanın hərb tarixini, hərb sənətini dövrlər üzrə əks etdirir. Muzeydə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən fotolar, sənədlər və ona məxsus əşyalar, hərbi geyim nümunəsi, ordu quruculuğu ilə bağlı gördüyü işlər, həmçinin Silahlı Qüvvələrin qoşun növləri üzrə hərbi geyim nümunələri nümayiş etdirilir.

Sonra tələbələr muzey bələdçisinin müşayiəti ilə açıq havada sərgilənən hərbi texnikalarla tanış olublar. Muzeydə əsrlər öncə istifadə edilən silahlardan tutmuş hazırda Azərbaycan Ordusunun arsenalında olan müasir silahların maketləri və həqiqi vahidləri, Qarabağ müharibəsi dövründə istifadə edilən silahlar, şəhid hərbçilərimizə məxsus geyimlər sərgilənir.

Jurnalistika fakültəsinin müəllim və tələbə heyəti İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun və Azərbaycanın Milli Qəhrəmanı, tank komandiri Albert Aqarunovun idarə etdiyi tankın maketlərinə də baxıblar.

Ekskursiya çərçivəsində AzTV-nin Hərbi vətənpərvərlik redaksiyasının baş rejissoru, müharibə reportyoru Ədil Arifoğlu ilə tələbələrin görüşü baş tutub. Görüşdə Ədil Arifoğlu hərbi reportyor kimi fəaliyyətindən, bu işin əsas xüsusiyyətlərindən bəhs edib.

Ekskursiyanın sonunda tələbələrin çoxsaylı sualları cavablandırılıb, tələbələrə Hərb Tarixi Muzeyindən maraqlı fotoreportajlar hazırlamaq tapşırılıb.

# Tələbələr Fəxri xiyabanı ziyarət ediblər



***Aprelin 13-də Kimya fakültəsinin tələbələri müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Fəxri Xiyabanı ziyarət ediblər.*** Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

# Şərqşünaslıq fakültəsi Bakı Kitab Mərkəzində ərəb ədəbiyyatına həsr olunmuş tədbir keçirib

***Aprelin 13-də Şərqşünaslıq fakültəsinin "Qiraət" kitab klubu Bakı Kitab Mərkəzində orta əsr ərəb ədəbiyyatına həsr olunmuş tədbir keçirib.***

Tədbirdə fakültə rəhbərliyi, moderator qismində professor Aida Qasımova, müəllimlər və ərəbşünas tələbələr iştirak ediblər.

III kurs tələbələri Şəfəq Ağalarlı Əbul 'Alə Əl-Mə'arrinin "Risələt əl-Ğufran", Gülbəs Həsənova Bədi əz-Zaman Həmədaninin "Mosul məqaməsi", Nəcimə Eldarova İbn Həzmin "Göyərçin boyunbağısı" əsərləri barədə geniş məlumat veriblər.

Çıxışlardan sonra fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda tələbələrə Bakı Kitab Mərkəzi tərəfindən kitablar hədiyyə edilib.

# BDU tələbələri IDEA Heyvanlara Qayğı Mərkəzində

***Aprelin 14-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri və əməkdaşları IDEA Heyvanlara Qayğı Mərkəzinə ekskursiya ediblər.***

Ekskursiya zamanı tələbələrə IDEA Heyvanlara Qayğı Mərkəzinin yaranması və fəaliyyət missiyası haqqında məlumat verilib. Qeyd olunub ki, IDEA Heyvanlara Qayğı Mərkəzinin təməli 2014-cü ilin oktyabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən qoyulub. 2016-cı ilin sonunda Mərkəzin inşası başa çatdırılıb, həmin il noyabrın 10-da isə Leyla Əliyevanın iştirakı ilə



kompleksin rəsmi açılışı baş tutub. 2017-ci ilin mart ayının 1-dən etibarən Mərkəz rəsmi olaraq fəaliyyətə başlayıb.

Tələbələrə Mərkəzdəki müasir avadanlıqlarla təchiz olunmuş klinika, it və pişiklər üçün sığınacaq, karantin blokları, himayə bölməsi, heyvan mehmanxanası və salonu, oyun meydançası, yataqxana, konfrans zalı, kafe və dükan barədə məlumat verilib.

Sonda Mərkəz əməkdaşları tələbələri maraqlandıran sualları cavablandırıblar.

# BDU tələbələrinin uşaq ədəbiyyatına dair təqdimatları nümayiş olunub

***Aprelin 19-da İnformasiya və sənəd menecmenti fakültəsinin Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında istehsalat təcrübəsi keçən tələbələrinin yerli və xarici müəlliflərin uşaq ədəbiyyatına dair kitablarının icmalından bəhs edən təqdimatları nümayiş olunub.*** Təqdimat zamanı tələbələr uşaq ədəbiyyatına dair müxtəlif kitabları redaktor hazırlığı, bədii tərtibat baxımından şərh edib, ayrı-ayrı nəşriyyatların çap məhsulları arasında müqayisəli təhlillər aparıb. Təcrübə müddətində tələbələr Respublika Uşaq Kitabxanasının strukturu, fondu, elektron kataloq və kartoteka sistemi, oxuculara xidmət işi, sənəd dövriyyəsi, elektron resursları barədə xüsusi bilik və bacarıqlara yiyələniblər. Bu bilik və bacarıqların onların gələcək karyeralarında mühüm rol oynayacağını bildirən tələbələr yaradılmış şəraitə görə kitabxana rəhbərliyinə və mütəxəssislərə minnətdarlıq ediblər. Sonda İnformasiya və sənəd menecmenti fakültəsinin, Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının rəhbərliyi və kitabxananın peşəkar mütəxəssisləri tərəfindən tələbələrin təqdimatları müzakirə edilib, irəli sürülən təkliflər dəyərləndirilib, həmçinin tələbələrə tövsiyələr verilib.

# "Paşa Həyat Sığorta" tələbələr üçün infosessiya keçirib

***Aprelin 19-da "Paşa Həyat Sığorta"nın Hüquq departamentinin direktoru Səbuhi Göyüşov Hüquq fakültəsinin tələbələri üçün "Həyat sığortası – praktiki kazuslarla" mövzusunda infosessiya keçirib.***

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov iştirakçıları sektorun fəaliyyəti ilə tanış edib, tələbələrin əmək bazarına hazırlıqlı daxil olmasının prioritet istiqamət olduğunu vurğulayıb. Sığorta şirkətlərinin inkişafının əmək bazarında rəqabətlilik yaratdığını qeyd edən İlkin Şərifov tələbələri təşkil edilmiş bilik mübadiləsində aktiv iştirak etməyə səsləyib.

"Paşa Həyat Sığorta"nın Hüquq departamentinin direktoru Səbuhi Göyüşov Hüquq fakültəsinin tələbələrini sığortanın tarixi, mövcud vəziyyəti haqqında məlumatlandırıb. Daha sonra həyat sığortası ilə qeyri-həyat sığortası arasındakı fərqləri aydınlaşdırıb, həyat sığortasını əmək bazarında gündəlik baş verən praktik kazuslarla izah edib. Görüşdə BDU tələbələrinin təhsil keyfiyyətinin yaxşılaşdırılması məqsədilə şirkət tərəfindən müxtəlif istiqamətlərdə təcrübə mübadiləsi sessiyalarının keçirilməsi, istehsalat və ya könüllü təcrübə proqramlarının təşkili məsələləri də müzakirə olunub. İnfosessiyanın gedişində də iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb.

# Tələbələr arasında stolüstü tennis turniri

***Aprelin 19-da Nərimanov Rayon Gənclər və İdman İdarəsi və Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində Universitet tələbələri arasında stolüstü tennis üzrə Nərimanov rayon turniri keçirilib.***

Turnirdə Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, BDU-nun TGT sədri Ələkbər Həsənov və Universitetin tələbələri iştirak ediblər. Turnirin keçirilməsində məqsəd gənclərin asudə vaxtlarını səmərəli təşkil etmək və idmanın təşviqidir.

Turnirin nəticələrinə uyğun olaraq qızlar arasında I yeri Xədicə Hüseyn, II yeri Fatimə Ələkbərova, III yeri Nərmin Rüstəmli, oğlanlar arasında isə I yeri Şaban Bağmanov, II yeri Zülfüqar Muxtarlı, III yeri Murad Səfalı tutublar.

# BDU-da nüvə enerjisinə dair ustad dərsi

***Aprelin 4-də Ekologiya və torpaqşünaslıq fakültəsində Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrasının müdiri, professor İsmayıl Əliyev tərəfindən "Nüvə enerjisi: real təhlükə, yoxsa ucuz enerji mənbəyi?" mövzusunda ustad dərsi keçirilib.***

İsmayıl Əliyev qeyd edib ki, nüvə bölünməsi nüvə stansiyalarında elektrik enerjisi istehsalı üçün bir proses kimi istifadə olunur. Nüvə enerjisi yalnız elektrik cərəyanı istehsalı üçün deyil, həm də tibb, sənaye, silah istehsalı və digər sahələrdə də çox ucuz bir xammaldır. Nüvə enerjisindən atom elektrik stansiyalarında (AES), atom buzqıran gəmiləri və atom sualtı qayıqlarının enerji qurğularında istifadə olunur, bu enerjinin kosmik gəmilərdə tətbiqi üzrə sınaqlar da aparılır. Atom nüvəsindən əldə edilən enerjinin miqdarı digər üsullarla alınan enerjinin miqdarından daha çoxdur, radioaktiv atom kütləsindən az miqdarda istifadə etməklə daha çox enerji əldə edilir. Məsələn, 1 kq radioaktiv urandan alınan enerji 200 ton kömürdən alınan enerjiyə bərabərdir. Nüvə reaksiyaları (bölünmə, sintez və ya hər ikisi birlikdə) nəticəsində maddənin vahid kütləsindən ayrılan enerji adi partlayıcı maddədəkinə (trotil) nisbətən 20-80 milyon dəfə artıq olur. Son dərəcə sürətlə və külli miqdarda ayrılan enerji nüvə partlayışı nəticəsində meydana çıxır, öz gücünə və zədələyici amillərinin



(zərbə dalğası, işıq şüalanması, nüfuzedici radiasiya, radioaktiv zəhərlənmə və elektromaqnit impulsu) xarakterinə görə adi döyüş sursatlarının partlayışından fərqlənir. 2004-cü ildən etibarən nüvə enerjisi dünya elektrik enerjisinin 16%-ni təchiz edir. Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin hesabatına görə, dünyada 439 nüvə elektrik reaktoru var və bunlar 31 ölkədə fəaliyyət göstərir. Bu enerji kifayət qədər təmiz enerji olub, radioaktiv tullantılar yaxşı idarə olunduğu halda hər hansı bir çirkləndirici maddə buraxmır. Bu, atmosferdə çirkləndirici qazların həcminin azalmasına və qlobal istiləşmənin qarşısını almağa kömək edir.

Ustad dərsinin sonunda tələbələrin çoxsaylı suallarıı cavablandırılıb.

# Misir Nəzəri Fizika Mərkəzinin prezidenti BDU-da elmi seminar keçirib

***Aprelin 5-də Misir Nəzəri Fizika Mərkəzinin prezidenti, akademik Abdel Nasser Taffik Fizika fakültəsində "Born qarşılığı, minimum uzunluğun qeyri-müəyyənliyi və diskretlənmiş Finsler quruluşunun köməyi ilə ümumi nisbilik nəzəriyyəsinin və kvant mexanikasının birləşməsi" ("Unifying General Relativity and Quantum Mechanics by Born Reciprocity, Minimal Length Uncertainty and Discretized Finsler Structure") mövzusunda onlayn elmi seminar keçirib.***

Məruzəçi qeyd edib ki, ümumi nisbilik nəzəriyyəsi və kvant mexanikasını birləşdirmək üçün Born qarşılığı və nisbi ümumiləşdirilmiş qeyri-müəyyənlik prinsipləri tətbiq edilir. Beləliklə, diskretləşdirilmiş əyri fəzada fundamental tenzorun yeni qiymətləndirilməsi təklif olunur. Bu məqsədlə Riemann həndəsəsi məsafə və təcil dualizminin simmetriyasını daxil etmək və minimum ölçülə bilən uzunluğu həyata keçirmək üçün genişləndirilib. Finsler həndəsəsində x koordinatı və p impulsu olan bir sınaq hissəciyi üçün nisbi ümumiləşdirilmiş qeyri-müəyyənlik prinsipini F(x, p) metrik tenzorun çıxarıla biləcəyi Finsler quruluşuna tətbiq etmək olar. Riemann diskret fəza zamanında yaranan metrik tenzor Veyl tenzoruna çox bənzəyir. Digər tərəfdən, bu, kvant mexanikasının prinsiplərinin ortaya çıxan fundamental tenzora birmənalı şəkildə tətbiq oluna biləcəyini göstərir. Ümumi nisbilik nəzəriyyəsində əyrilik tenzorları da hesablanır və 3 sferaya tətbiq edilir. Bu tədqiqat klassik ümumi nisbilik nəzəriyyəsini qoruyur, lakin kvant-mexaniki miqyasın daxil edilməsi üçün tətbiq olunmasının genişləndirilməsini təklif edir.

Sonda mövzu üzrə müzakirələr aparılıb və məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli Jurnalistika fakültəsinin tələbələrinə ustad dərsi keçib

***Aprelin 10-da Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri, əməkdar jurnalist Natiq Məmmədlinin BDU-nun Jurnalistika fakültəsinin tələbələri ilə görüşü təşkil edilib.***

Natiq Məmmədli II kurs tələbələrinə "İnternet medianın hüquqi tənzimlənməsi" mövzusunda ustad dərsi keçib. O, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı fonunda internet medianın hazırkı vəziyyəti, statusu, informasiya təhlükəsizliyi və sosial şəbəkələrdə hüquqi tənzimləmə məsələlərindən danışıb.

Natiq Məmmədli bildirib ki, onlayn platformalarda hüquqi tənzimlənmə vacibdir. İnternetin verdiyi azadlıq digər azadlıqları məhdudlaşdırmadığından onlayn platformada balansın əldə olunması üçün hüquqi tənzimlənmə mexanizmi işlənməlidir. Dərs tələbələrin mövzu ilə əlaqədar suallarının cavablandırılması ilə başa çatıb.



# BP-nin əməkdaşı BDU tələbələrinə ustad dərsi keçib

***Aprelin 12-də BP-nin "Turan Qazma və Mühəndislik" şirkətinin dəniz neft-qaz quyularının qazılmasında texniki təhlükəsizlik üzrə mütəxəssisi Geologiya fakültəsinin IV kurs tələbələrinə "Dəniz qazma əməliyyatları və təhlükələrin müəyyən olunması" mövzusunda ustad dərsi keçib.***




Məruzəçi müasir qazma üsullarından istifadə etməklə neft-qaz yataqlarında istismar prosesinin səmərəliliyinin artırılması və təhlükəsizlik qaydalarına riayət olunması, qazma məhlullarının keyfiyyət parametrləri və funksiyaları haqqında məlumat verib. Bildirib ki, müxtəlif regionlarda, xüsusən mürəkkəb geoloji şəraiti olan sahələrdə neft və qaz quyuları qazılan zaman mürəkkəbləşmələr baş verir və bunun aradan qaldırılmasına çoxlu vaxt və vəsait sərf olunur. Mürəkkəbləşmələrin səbəbləri, başvermə mexanizmləri və nəticələri barədə məlumat verən Əkbər Cəlilov qeyd edib ki, onların əksəriyyətinə anomal lay təzyiqləri zonalarında rast gəlinir. Lay təzyiqi yüksək olduqda, neft-qazsu təzahürləri baş verə bilər və bir çox hallarda bunlar açıq fontana keçir. Lay təzyiqi çox kiçik olduqda məhlulun udulması kimi ağır mürəkkəbləşmə ilə rastlaşmaq olar. Qeyd olunanlar qazma zamanı dərin tədqiqatların aparılmasını, baş verə bilən mürəkkəbləşmələrin erkən mərhələdə proqnozlaşdırılması yollarının axtarılması məsələsini gündəliyə çıxarır.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Şəfqət, xeyirxahlıq, mərhəmət bayramı

***21-22 aprel insanların ruhunu və mənəviyyatını saflaşdıran, onları humanizmə, birlik və bərabərliyə dəvət edən müqəddəs Ramazan bayramıdır.***

Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayını məcazi mənada "on bir ayın sultanı" adlandırırlar. Ramazan ayı mənəviyyatı möhkəmləndirən, dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir.

Ramazan ayı insanları xeyirxah əməllərə dəvət edən, onlara əxlaqi saflığın, nəfs üzərində qələbənin və ruhi-mənəvi kamilliyin sevincini yaşadan mübarək aylardandır. Mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynayıb. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir. Ramazan bayramı insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır. Ümumbəşəri əhəmiyyətə malik bu bayram insana sonsuz iman sevgisi bəxş edir. Savab, ülfət ayı olan Ramazan əsrlər boyunca bəşər övladına dözüm, mərhəmət, Allahın yaratdıqları arasında münasibətlərdə xeyirxahlıq təlqin edir, mili-mənəvi birlik, humanizm, səbr, dözüm, yardımsevərlik aşılayır.

Mübarək Ramazan bayramı dövlətimizə sülh, firavanlıq, xalqımıza ruzi-bərəkət gətirsin. Oruc və dualarınız həmişə Tanrı dərgahında qəbul olsun!

Ramazan bayramınız mübarək!

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr edilmiş təlim

***Aprelin 3-də Hüquq fakültəsinin BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə əməkdaşlığı çərçivəsində "Tələbə tərəfindən tələbə üçün" layihəsinin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr edilmiş növbəti təlimi keçirilib.*** Layihənin təlimçisi, Hüquq fakültəsinin III kurs tələbəsi Səyad Ələkbərov tərəfindən "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası: müqayisəli təhlil" mövzusu üzrə Bəyannamənin beynəlxalq hüquqi statusu, milli qanunvericiliyə təsiri, aktuallığı, maddələrin təfsiri, Azərbaycan Respublikasının Konstitusiyası ilə müqayisəli təhlili məsələləri haqqında ətraflı məlumat verilib. İnteraktiv formada baş tutmuş təlim tələbələr tərəfindən böyük maraqla qarşılanıb, onların çoxsaylı sualları cavablandırılıb.



Qeyd edək ki, layihə çərçivəsində yuxarı kurs tələbələri aşağı kurs tələbələrinə əvvəlcədən müəyyən edilmiş və hazırlanmış mövzular üzrə təlimlər keçirlər. Layihənin əsas məqsədi təlimçinin tələbəni öyrətməsi deyil, bildiklərini bölüşməyi və qarşılıqlı öyrənməsidir. Keçirilən seminarlar müddətində tələbələr özlərinin ictimai nitq, hüquqi araşdırma, təqdimat, arqumentləri düzgün müdafiə etmə kimi bacarıqlarını inkişaf etdirir, müəyyən edilmiş mövzu barəsində fundamental biliklər qazanırlar.

# BDU tələbələri AMEA MEK-in "Qarabağ Qəhrəmanları Fondu"nu ziyarət ediblər

Aprelin 28-də İnformasiya və sənəd menecmenti fakültəsinin bir qrup tələbəsi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) "Qarabağ Qəhrəmanları Fondu"nu ziyarət ediblər.

AMEA MEK-in baş direktoru, professor Məmməd Əliyev əvvəlcə kitabxananın tarixi, strukturu, fəaliyyəti barədə tələbələrə məlumat verib. O vurğulayıb ki, kitabxananın yeni binası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən tikilib.

Kitabxanada 2021-ci ildən fəaliyyət göstərən "Qarabağ Qəhrəmanları Fondu" barədə məlumat verən Məmməd Əliyev bildirib ki, 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərdən sonra yaradılmış fond Azərbaycan kitabxana sistemində bir ilk hesab olunur. Vətən müharibəsi qəhrəmanlarının irsinin təbliğində və eyni zamanda əbədiləşdirilməsində fondun mühüm əhəmiyyətə malik olduğunu deyən Məmməd Əliyev qeyd edib ki, fondda Birinci Qarabağ müharibəsinin və 44 günlük Vətən müharibəsinin şəhidləri, qaziləri, iştirakçıları haqqında məlumat bazası yaradılıb, baza davamlı olaraq yenilənir və təkmilləşdirilir: "Fondda olan nəşrlər həmçinin elektron kataloqa daxil edilərək, rəqəmsallaşdırılıb. Elektron bazada Azərbaycan və xarici dillərdə informasiya resursları, biblioqrafik məlumatlar, bu istiqamətdə aparılan tədqiqatlar yer alıb. Əminəm ki, bu mövzu ilə bağlı gələcəkdə dərc ediləcək məqalələr, elmi nəşrlər, müdafiə olunacaq dissertasiyalarla fond daha da zənginləşəcək".



Ziyarət zamanı tələbələr fondda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağda müxtəlif dövrlərdə çəkilmiş şəkilləri, "Qarabağ Azərbaycandır!" guşəsində müharibə iştirakçılarının fotoları, şəhidlərimizin şəxsi kitabxanalarından ailələri tərəfindən fonda hədiyyə olunmuş kitablardan ibarət kolleksiya, Azərbaycan Respublikasının xəritəsi üzərində şəhid adlarının əks olunduğu "Zəfər memarları" guşəsi, digər maraqlı məlumat və eksponatlarla tanış olublar.

# "Gənc istedadlar" liseyində "Kimya gecəsi"

***Aprelin 28-də Kimya fakultəsinin Kimyanın tədrisi metodikası kafedrasının təşkilatçılığı ilə BDU-nun nəzdində "Gənc istedadlar" liseyində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Kimya gecəsi" keçirilib.***

Liseyin direktoru Arif Bağırov milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyevin bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edildiyini vurğulayıb, belə tədbirlərin gənc nəslin təlim-tərbiyəsində böyük rolu olduğunu deyib. Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov isə çıxışında bildirib ki, Azərbaycanın son yarım əsrlik tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Yüksək erudisiyaya, dərin zəkaya, müdrik uzaqgörənliyə və zəngin təcrübəyə malik olan Heydər Əliyev dühası bütövlükdə Azərbaycan iqtisadiyyatının, o cümlədən, kimya sənayesinin inkişafında olduqca böyük rol oynayıb.



Kimyanın tədrisi metodikası kafedrasının müdiri Xəlil Nağıyev kimya elminin incəlikləri, əhəmiyyəti barədə şagirdləri məlumatlandırıb.

Kimya kafedrasının metodisti Arzu Paşayeva və Cəmilə Əşrəfovanın təşkilatçılığı ilə universitet tələbələri və lisey şagirdlərinin birgə hazırladığı səhnəciklər və kimyəvi reaksiyalar izləyicilər tərəfindən maraqla qarşılanıb. Sonra liseyin musiqi müəllimi Kəmalə Əliyevanın rəhbərliyi ilə şagirdlərin ifasında kimya haqqında kompozisiya təqdim olunub.

# Beynəlxalq Əqli Mülkiyyət Gününə həsr olunmuş elmi seminar

***Aprelin 27-də İnformasiya və sənəd menecmenti fakültəsində 26 aprel - Beynəlxalq Əqli Mülkiyyət Gününə həsr olunmuş elmi seminar keçirilib. Elmi seminarda Sənəd menecmenti kafedrasının müəllimi Əliyusif Məmmədov "Əqli mülkiyyətə dair sənəd-informasiya resusları" adlı məruzə ilə çıxış edib.***

Məruzəçi əvvəlcə əqli mülkiyyət anlayışını şərh edib, ölkəmizin Ümumdünya Əqli Mülkiyyət Təşkilatında, müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində beynəlxalq konvensiya və müqavilələrdə fəal iştirakından, eyni zamanda bu sahədə dövlət siyasətini həyata keçirən Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin səmərəli fəaliyyətindən bəhs edib. Tədqiqatçı əqli mülkiyyət sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi haqqında ətraflı məlumat verib, bu sahənin hüquqi bazasının formalaşmasında Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin müstəsna xidmətlərini diqqətə çatdırıb.

Məruzədə əqli mülkiyyət hüquqlarının təminatı, piratçılıqla mübarizə, əmtəə nişanları, müəlliflik hüquqları və əlaqəli hüquqların pozulmasına görə məsuliyyət, əqli mülkiyyətin beynəlxalq səviyyədə qorunması kimi məsələlər şərh olunub, əqli mülkiyyətə dair sənəd-informasiya resursları təhlil edilib.

Tədqiqatçı həmçinin bu istiqamətdə BDU-da həyata keçirilən işlərdən bəhs edib. Bildirib ki, BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin tərkibində Əqli mülkiyyətin qorunması şöbəsi yaradılıb. Şöbənin fəaliyyəti BDU-nun intellektual mülkiyyətinin qorunmasını təmin etmək, ixtiraçılıq, patent-lisenziya, tətbiqi elmi-tədqiqat işlərinin və işləmələrin perspektiv və cari planlarını hazırlamaq, ixtiraçılara və tədqiqatçılara ixtiraların tərtibində və müəlliflik hüququnun qorunmasında yardımçı olmaq, əməkdaşların və tələbələrin əqli mülkiyyətin qorunmasının hüquqi aspektləri üzrə təlimlərinə təşkilati dəstək vermək kimi vacib istiqamətləri əhatə edir. Məruzədə Universitetin İnformasiya və sənəd menecmenti fakültəsində müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında fənnlərin tədris olunduğu, fakültə əməkdaşları tərəfindən bu sahə üzrə monoqrafiya, dərs vəsaiti və elmi məqalələrin hazırlandığı, bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələr tərəfindən həmin mövzuları əhatə edən buraxılış işləri və dissertasiyaların müdafiə olunduğu da vurğulanıb.

Elmi seminar müzakirələrlə davam edib.

# Əqli mülkiyyət hüquqlarına dair dəyirmi masa keçirilib

***Aprelin 28-də Hüquq fakültəsinin Əqli mülkiyyət hüququ kafedrasında 26 aprel - Beynəlxalq Əqli Mülkiyyət Gününə həsr olunmuş dəyirmi masa keçirilib.***

Kafedra müdiri vəzifəsini icra edən Aydın Səfixanlı "Azərbaycanda insan hüquqları və əqli mülkiyyət hüququnun qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda çıxış edib. O, Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın demokratik inkişafı, hüquqi dövlət quruculuğu, insan hüquqlarının, o cümlədən, əqli mülkiyyət hüququnun müdafiəsi sahəsində həyata keçirilən islahatların memarı olduğunu bildirib, onun zəngin həyat və idarəçilik təcrübəsi barədə məlumat verib.

Kafedranın müəllimləri Xumar Qurbanova "Əqli mülkiyyət və gender bərabərliyi", Azər Səfərov "Universitetlərdə əqli mülkiyyət siyasəti və elmi tədqiqat fəaliyyəti", Aydan Məmmədova "Əqli mülkiyyət hüququ və innovativ inkişaf", Leyla Əskərzadə "Tibb sahəsində patent", Aytac İsmayılova "Plagiat və müəllif hüququ pozuntuları" mövzularında çıxışlar ediblər.

# BDU əməkdaşları Avropa Birliyi tərəfindən maliyyələşdirilən COST proqramı üzrə STSM qrant müsabiqəsinin qalibi olublar

***BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi Sevinc Nuriyeva və aparıcı elmi işçisi Lalə Qəhrəmanlı Avropa Birliyi tərəfindən maliyyələşdirilən Elm və Texnologiyada Avropa Əməkdaşlığı (European Cooperation in Science and Technology (COST)) proqramının "Fotovoltaika üçün yeni qeyri-üzvi halkogenidlərin tədqiqi və beynəlxalq əməkdaşlıq" (CA21148) adlı layihəsi üzrə Qısamüddətli Elmi Missiya (Short-term Scientific Mission (STSM)) qrant müsabiqəsinin qalibi olublar.***

Layihə çərçivəsində Sevinc Nuriyeva "Fotovoltaika üçün çoxlaylı karbon nanoboruları və mis sulfid nanoqilləri (CN/CuS) əsasında materiallar" mövzusu üzrə Portuqaliyanın NOVA Universitetinin Nanostrukturlar, Nanomodelləşdirmə və Nanofabrikasiya İnstitutunun Material Tədqiqat Mərkəzinin, Lalə Qəhrəmanlı isə "Fotovoltaika üçün gümüş sulfid-kadmium sulfid və gümüş nanoqilləri və grafen əsaslı (Ag2S-CdS NN/Ag NN/QF) materiallar" mövzusu üzrə Almaniyanın Erlangen-Nürnberq Universitetinin Nazik təbəqəli materialların kimyası şöbəsinin əməkdaşları ilə birgə elmi tədqiqatlar aparacaqlar.

Onu da qeyd edək ki, STSM müsabiqəsində iştirak etmiş 120 layihə arasında qalib olmuş 8 qrant layihəsinin 2-si BDU-nun əməkdaşlarına məxsusdur.

Əməkdaşlarımızı təbrik edir və onlara uğurlar arzulayırıq.

# "İnformasiya resurslarının təbliğində kitabxana saytlarının rolu" mövzusunda müzakirələr aparılıb

Aprelin 18-də İnformasiya və sənəd menecmenti fakültəsinin və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə "İnformasiya resurslarının təbliğində kitabxana saytlarının rolu" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Ləman Eyyubova mövzu ilə bağlı məruzə edib. Gənc tədqiqatçı əvvəlcə informasiya, resurs anlayışlarını şərh edib, informasiya texnologiyalarının inkişaf tarixinə nəzər salıb. Bildirib ki, XXI əsrdə kitabxana işində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ən mühüm mərhələyə gəlib çatıb: "Kitabxanaların fəaliyyətində yeni idearətmə formalarının və innovativ yanaşmaların tətbiqi informasiya əsrinin əsas çağırışları hesab olunur. Ona görə də müasir dövrdə kitabxana-informasiya fəaliyyəti sahəsində PR texnologiyalarından səmərəli istifadə günün mühüm tələbi kimi ortaya çıxır".

Kitabxanların ictimaiyyətlə münasibətlərinin formalaşmasında, innovativ PR texnologiyalarının tətbiqində kitabxana saytlarının mühüm rola malik olduğunu qeyd edən tədqiqatçı vurğulayıb ki, bütün bunlar kitabxanaların xidmət səviyyəsinin təkmilləşməsi və eyni zamanda hazırlıqlı oxucu kütləsinin formalaşması ilə nəticələnir. Kitabxana saytlarının elektron resursların oxucuya çatdırılmasında ən yaxşı vasitə olduğunu qeyd edən məruzəçi qeyd edib ki, web saytlar oxucu ilə kitabxana arasındakı zaman və məkan maneəsini birmənalı olaraq aradan qaldırır.

Məruzəçi ölkə kitabxanalarının saytlarını tədqiqata cəlb edib, onlar arasında müqayisəli təhlillər aparıb, həmçinin bu sahədə mövcud olan beynəlxalq təcrübəni iştirakçıların diqqətinə çatdırıb.

Elmi seminar diskussiyalarla davam etdirilib.

# BDU tələbələri "Təmiz Şəhər" ASC-də

***Aprelin 25-də Ekologiya və torpaqşünaslıq fakültəsinin müəllim və tələbələri 22 aprel - Beynəlxalq Yer Günü münasibətilə "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə ekskursiya ediblər.***



Onlar əvvəlcə Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodunda tullantıların çeşidlənməsi və təkrar emal müəssisələrinə göndərilməsi prosesini izləyib, sonra Bakı bərk məişət tullantılarının yandırılması zavodunun iş prosesi ilə tanış olublar. Bildirilib ki, 2013-cü ildən istifadəyə verilən zavod il ərzində 500 min ton tullantını zərərsizləşdirmək gücündədir və 4G texnologiyası əsasında Avropanın ən sərt ekoloji norma və tələbləri çərçivəsində fəaliyyət göstərir. Zavodda tullantıların termik üsulla zərərsizləşdirilməsi nəticəsində il ərzində 200 milyon kilovat/saata qədər elektrik enerjisi əldə olunur. Bu isə təxminən 100 min ev təsərrüfatının enerjiyə olan tələbatını ödəyir.

Balaxanı Sənaye Parkında da olan fakültə kollektivi burada təkrar emal prosesini izləyib. Məlumat verilib ki, Sənaye Parkı 2017-ci ildən fəaliyyət göstərir. Hazırda 25 rezident qeydiyyatdan keçərək 27 istiqamət üzrə təkrar emal prosesi ilə məşğul olur.

Sonda iştirakçıları maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb və tullantıların ilkin çeşidlənməsi istiqamətində fəaliyyətin genişləndirilməsinin vacibliyi ifadə edilib.

# BDU tələbəsi dünya çempionu oldu

***Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin para-pauerliftinq idman növü üzrə milli komandasının üzvü Talıb Zeynalov Gürcüstanın Tbilisi şəhərində keçirilən Dünya kubokunda +107 kq çəki dərəcəsinin "gənc idmançılar" kateqoriyasında 146 kq nəticə göstərərək fərdi çəkidə qızıl medal qazanıb.*** Bu nəticə ilə idmançımız ümumi çəkidə də daha bir qızıl medalın sahibi olub.



Talıb Zeynalov böyüklər arasında 146 kq ilə yarışı 5-ci pillədə tamamlayıb.

Qeyd edək ki, Talıb Zeynalov Bakı Dövlət Universitetinin Tarix fakültəsinin II kurs tələbəsidir.

# Elmi seminar: "Qapalı ekoloji sistemlər"



***Aprelin 25-də Biologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Qapalı ekoloji sistemlər" mövzusunda elmi seminar keçirilib.***

TEC-in Biologiya fakültəsi üzrə elmi rəhbəri, Molekulyar biologiya və biotexnologiyalar kafedrasının müəllimi Nurlan Əmrahov seçilmiş mövzu haqqında iştirakçılara məlumat verib, tələbələrin elmə marağının yüksək olduğunu bildirib.

II kurs tələbəsi Səkinəxanım Qasımova astrobiologiya və bu sahədə əldə edilmiş elmi ixtiralar barədə tələbələri məlumatlandırıb. O, hazırda "Mars 2020" proqramı çərçivəsində Marsda olan "Perseverance" və "Ingenuity" aparatları haqqında fikirlərini bölüşüb. Məruzəçi həmçinin kosmosda oksigenin, suyun və enerjinin alınması, radiasiyadan qorunmağın yolları haqqında danışıb.

Sonra müəllim və tələbələrin sualları cavablandırılıb.

# BDU tələbələri Səfəvilərin dövlətçilik tariximizdəki rolunu araşdırıblar



***Aprelin 25-də Tarix fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Səfəvilərin dövlətçilik tariximizdə rolu" adlı elmi seminar keçirilib.***

Seminarda 4 məruzə dinlənilib. Fakültənin TEC rəhbəri, tarix üzrə fəlsəfə doktoru Hicran Mahmudova Azərbaycanın dövlətçilik tarixi, Səfəvilər dövlətinin önəmli rolu barədə məlumat verib.

Fakültənin III kurs tələbələrindən Eynulla Eynullayev "Şah I Abbas və onun həyata keçirdiyi islahatlar", Tural Qafarov "Səfəvilərin əzəmətinin sonuncu səhifəsi - Şah II Abbas", Murad Böyükxanov "Səfəvilər dövründə mədəniyyət" adlı məruzələrində Azərbaycan tarixinin ən qüdrətli dövlətlərindən olan Səfəvilərin xarici, daxili siyasəti, mədəni-ictimai mühiti, həmin dövrdə aparılan islahatlarla bağlı məlumatları diqqətə çatdırıblar.

Seminarın sonunda Tarix fakültəsinin magistri Anar Can Kıtay "Azərbaycan tarixi terminologiyasında dövlətin adlandırma məsələsi" adlı məruzə edib.

# ZnO nanokompozitlərin sintezi tədqiq olunub

***Aprelin 3-də Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında növbəti elmi seminar keçirilib.*** Seminarda laboratoriyanın böyük elmi işçisi Sevinc Nuriyeva "PP/ZnO nanokompozitləri: Sintezi, quruluşu və xassələri" mövzusunda məruzə edib. Məruzəçi ZnO (sink oksid) nanohissəcikləri əsasında



polimer kompozitlərin sintezi, alınmış materialların quruluş və xassələrinə nanohissəciklərin təsiri barədə məlumat verib. O qeyd edib ki, tədqiqatlar nəticəsində nanodoldurucunun miqdarından asılı olaraq kompozit materialların kristallik quruluşu, lüminessent və dielektrik xassələrinin yaxşılaşması müəyyən edilib. Bu tip materiallar alternativ günəş mənbələri, elektrokimyəvi sensorlar və eləcə də superkondensatorlarda geniş tətbiq imkanlarına malikdir.

# Xərçənglə mübarizədə istifadə oluna biləcək yeni makroheterotsiklik birləşmələr dizayn olunub

***BDU-nun Sənaye kimyası və Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyalarının əməkdaşları Ələkbər Hüseynzadə, Ülviyyə Həsənova və Günel Əliyevanın həmmüəllifi olduqları "Yeni dizayn olunmuş azometin qrupu daşıyan makroheterotsiklik birləşmələrin neyroblastoma hüceyrə xətlərində oksidləşdirici stresə və DNT-ni bərpa edən gen profillərinə təsiri haqqında eksperimental və nəzəri anlayışlar" (Experimental and theoretical insights about the effect of some newly designed azomethine group contained macroheterocycles on oxidative stress and DNA repair gene profiles in neuroblastoma cell lines) adlı məqaləsi "Journal of Molecular Structure" jurnalında (IF: 3.841, Q3) dərc olunub.***

Tədqiqat işində yeni 40, 68 və 72 üzvlü makroheterotsiklik birləşmələri sintez olunub və neyroblastoma xərçəng hüceyrə xəttinə qarşı tədqiq edilib. Sintez olunmuş birləşmələrin quruluşları Nüvə Maqnit Rezonans spektroskopiya, MALDİ kütlə spektrometriya və element analiz üsulları ilə araşdırılıb.

Molekulların xərçəngə qarşı aktivliyi MTT üsulu ilə 24, 48 və 72 saat ərzində səkkiz müxtəlif konsentrasiyada neyroblastoma (SH-SY5Y) hüceyrə xəttində tədqiq edilib. Bundan əlavə, RT-PCR üsulu ilə oksidləşdirici stress (GPX1, PRDX1, CAT, SOD1, NQO1) və DNT (ATR, ERCC1, CDKN1A, PRKDC) gen profilləri də tədqiq olunub. Bütün sintez edilmiş birləşmələrin 72 saat inkubasiyadan sonra ən yüksək aktivlik göstərdiyi müəyyənləşib. Eksperimental tədqiqatlarla yanaşı, nəzəri tədqiqatlar da aparılıb. "String v11" proqramı oksidləşdirici stress və DNT mexanizmlərində iştirak edən zülalların digər zülallarla qarşılıqlı əlaqəsini müəyyənləşdirmək üçün istifadə edilib. Molekulyar dokkinq analizinin nəticələrinin təcrübələrlə yaxşı uyğunlaşdığı aşkarlanıb.

# BDU-nun alimi nanovektorların xərçəngin müalicəsində rolunu tədqiq edib

***Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllifi olduğu "Xərçəng müalicəsi üçün təbii və sintetik nanovektorlar" (Natural and synthetic nanovectors for cancer therapy) adlı məqalə "Web of Science" elmmetrik bazasına daxil olan "Nanotheranostics" jurnalında çap olunub.***

Məqalədə xərçəng xəstəliyinin müalicəsi üçün dərmanların hədəfə çatdırılmasında nanomaterialların vektor kimi istifadəsindən bəhs edilir. Məlumdur ki, vektorlar sabitlik və biouyğunluq kimi çoxsaylı üstünlüklərə malikdirlər. Nanodaşıyıcı dərmanı spesifik orqana daha dəqiq çatdıra bilir, eyni zamanda onun farmakokinetik xüsusiyyətlərini yaxşılaşdırır və bununla da hədəf olmayan toxumalara ikinci dərəcəli mənfi təsirlərin qarşısını alır. Nanovektorlar arasında liposomlar, dendrimerlər, karbon nanostrukturları, nanohissəciklər, nanotellər və s. kimi müxtəlif material növləri ayırd edilə bilər ki, bunların hər biri xərçəngin müalicəsi üçün müxtəlif imkanlar təqdim edir. Bu araşdırmada nanovektorların geniş spektri, fəaliyyət rejimi və farmakokinetikasının multimodal xərçəng terapiyası və diaqnostikasında tətbiqi təhlil edilib.

# Acınohur və Sarıca düzlərində ceyran populyasiyasının bərpasına dair elmi seminar

***Aprelin 18-də Ekologiya və torpaqşünaslıq fakültəsində "Acınohur və Sarıca düzlərində ceyran (Gazella subgutturosa Guldenstaedt, 1970) populyasiyasının bərpası üzrə ilkin nəticələr" mövzusunda elmi seminar keçirilib. Seminarda Bioekologiya kafedrasının doktorantı Sevinc Saruxanova mövzu üzrə məruzə edib.***

O qeyd edib ki, tarixən ceyranlar Şərqi Qafqazda Kür-Araz ovalığında və Abşeron yarımadasında geniş yayılıb. Zamanla Xəzər dənizinin səviyyəsinin dəyişməsi, Kür-Araz çaylarının allüvial fəaliyyəti, tektonik proseslər, iqlim dəyişmələri nəticəsində bitki örtüyünün təbii suksessiyası və ən sonda antropogen amillər nəticəsində ceyranların sayı və yaşayış sahələri getdikcə azalıb. 1960-cı ildə aparılmış aviasayım zamanı respublika ərazisində cəmi 131 baş ceyran qeydə alınıb. Təcili olaraq bu növün xilas edilməsi üçün xüsusi mühafizə tədbirləri həyata keçirilib. 2022-ci ildə aparılmış sayım nəticəsində ölkə ərazisində 6262 ceyran olduğu müəyyən edilib. Ceyranların tarixi areallarının bərpası məqsədi ilə 2010-cu ildən başlayaraq reintroduksiyası aparılıb.

Tədqiqat zamanı 2010-2020-ci illərdə Acınohur və Sarıca düzlərinə köçürülmüş ceyranların populyasiya dinamikası və onların yeni areala adaptasiyası öyrənilib. Belə ki, 2010-2020-ci illər ərzində Şirvan Milli Parkından 103 baş ceyran tutularaq Acınohur və Sarıca düzlərinə köçürülüb. Onların 57-si erkək, 46-sı dişi olub. Tədqiqatın nəticələrinə görə, ilk illərdə populyasiyada artım zəif gedib. 2019-cu ildə aparılmış sayım ceyran populyasiyasında sürətli artım olduğunu göstərib. Ceyranlar yeni köçürülmüş ərazilərdə düzənliklərdə cəmləşib. Tədqiqat zamanı aparılmış müşahidələr ceyranların yerdəyişmələrinin ərazidə mal-qaranın mövcudluğundan asılı olduğu müəyyən edilib. Belə ki, qış otlaqları boş olduğu müddətdə ceyranlar müntəzəm hərəkət marşrutlarından istifadə edib və əlverişli yerlərdə cəmləşib. Su mənbələrinin məhdud olduğu quraq mövsümlərdə ceyranlar Mingəçevir su anbarına doğru hərəkət edib.

Sonra seminar iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

# "Bitkilərdə ağızcıq aparatının funksiyası və tənzimlənməsinin metabolizmi"

***Aprelin 3-də Biologiya fakültəsində Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Karbonun fotosintetik assimilyasiyasının enzimologiyası laboratoriyasının baş elmi işçisi, biologiya elmləri doktoru Şahniyar Bayramovun "Bitkilərdə ağızcıq aparatının funksiyası və tənzimlənməsinin metabolizmi" mövzusunda elmi seminarı keçirilib.*** Məruzəçi bitkilərdə ağızcıq aparatının əsasən yarpağın epidermal strukturlarında məsamələr şəklində yerləşdiyini və onun əsas funksiyasının qaz və su mübadiləsini (transpirasiya), fotosintez prosesini tənzimləmək olduğunu deyib. Ağızcıq aparatı əsasən mühafizə hüceyrələri kimi tanınan iki xüsusi hüceyrədən təşkil olunub. Bu strukturda baş verən metabolik proseslər həm endogen, həm də ətraf mühit siqnallarının köməyi ilə tənzimlənir.

Seminarda ağızcıq aparatını təşkil edən hüceyrələrin anatomik xüsusiyyətləri, onları əhatə edən mezofil hüceyrələri ilə əlaqəsi, üzvi maddələrin metabolizminin tənzimlənməsi yolları və s. haqqında məlumat verilib.

Sonda məruzəçi seminar iştirakçılarının suallarını cavablandırıb.

# Qiymətli kağızlar bazarında risklərin ölçülməsi metodlarına dair elmi seminar

***Aprelin 3-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin İqtisadi kibernetika kafedrasında "Qiymətli kağızlar bazarında səhmlərin gəlirliliyinin və risklərin ölçülməsi metodları" mövzusunda elmi seminar keçirilib. Kafedranın müəllimi Namiz Baxışov mövzu ilə bağlı məruzə edib.***

Mərüzəçi maliyyə və qiymətli kağızlar bazarı haqqında ümumi məlumat verib. Məruzədə ölkədəki qiymətli kağızlar bazarının problemləri, inkişafı və perspektivləri, maliyyə bazarlarına təsir edən amillər, risklərin idarə edilməsi, valyuta məzənnəsinin sabitliyinin qorunması müzakirə edilib. Həmçinin səhmlərin gəlirliliyinin və risk dərəcəsinin ölçülməsinin metodları göstərilib, nəticələr təhlil edilib. Elmi seminar iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# Hibrid enerji sistemlərinin ağıllı nəqliyyat texnologiyasına tətbiqinə dair elmi seminar

***Aprelin 11-də Fizika fakültəsinin Nanomaterialların kimyəvi fizikası kafedrasının elmi seminarı keçirilib. Seminarda kafedranın III kurs doktorantı Orxan Güləhmədov "Triboelektrik nanogeneratorlar əsasında hibrid formalı enerji sistemlərinin ağıllı nəqliyyat texnologiyasına tətbiqi" mövzusunda çıxış edib.***

Məruzəçi triboelektrik nanogeneratorların (TENG) fiziki əsasları, səthi strukturların TENG-in çıxış parametrlərinə təsiri, belə sistemlərin enerji generasiya edən sistem və öz-özünü enerji ilə təmin edə bilən sensor kimi tətbiqi barədə məlumat verib. O, eyni zamanda TENG-lərin ağıllı nəqliyyat texnologiyalarına tətbiqi və hibrid formalı enerji sistemlərinin yaradılmasının magistral yollarda olan bir çox elektronik sistemlər üçün enerji mənbəyi və sensor kimi istifadəsinin aktuallığı barəsində aparılmış elmi-tədqiqat işlərinin nəticələrini seminar iştirakçılarının diqqətinə çatdırıb.

Seminarın sonunda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU tələbələri Təhsil Tələbə Krediti Fondunun fəaliyyəti barədə məlumatlandırılıb



***Aprelin 5-də Təhsil Tələbə Krediti Fondunun (TTKF) nümayəndələri Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbələri ilə görüşüblər.***

Görüşdə Fondun nümayəndəsi Ağca Məmmədova təqdimatla çıxış edib. O, tələbələrə Fondun fəaliyyəti və təhsil tələbə kreditinin verilməsi qaydaları barədə ətraflı məlumat verib. Bu layihənin sosial müdafiəsi zəif olan tələbələrə dəstək məqsədi daşıdığını vurğulayıb, tələbələri dövlətin yaratdığı imkandan yararlanmağa çağırıb.

Daha sonra tələbələri maraqlandıran suallar cavablandırılıb. Qeyd edək ki, TTFK-nin əsas missiyası təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılmasıdır.

# BDU-nun magistrantı “Çağdaş tatar hekayələri antologiyası”nı Azərbaycan dilinə tərcümə edib



***Aprelin 6-da BDU-nun Türkologiya kafedrasının magistrantı, Tələbə Elmi Cəmiyyəti nəzdində Türkoloji dərnəyin rəhbəri Məleykə Mirzəlinin tərcüməsində nəşr edilmiş “Çağdaş tatar hekayələri antologiyası” adlı kitabın Tatarıstanın Azərbaycandakı nümayəndəliyində təqdimatı keçirilib.*** 31 müasir tatar nasirinin hekayələrindən ibarət olan kitabın redaktoru və ön sözünün müəllifi BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğludur.

Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı rəhbəri olduğu layihə haqqında məlumat verib və nəşrin əhəmiyyətindən söz açıb.

Tatarıstanın Azərbaycandakı nümayəndəliyinin daimi nümayəndəsi Murad Qadılşin layihə əsasında tərtib olunmuş bu kitabı mühüm ədəbi-mədəni hadisə hesab edib və kitabın ərsəyə gəlməsində əziyyəti keçən hər kəsə təşəkkürünü bildirib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, kitabın məsləhətçisi Qənirə Paşayeva bu nəşrin Azərbaycan-Tatarıstan ədəbi-mədəni əlaqələrinin möhkəmlənməsinə dəyərli töhfə olduğunu diqqətə çatdırıb. Sonra Tatarıstanın millət vəkili, Tatarıstan Yazıçılar Birliyinin sədri Rkail Zəydulla, hekayələrin tərcüməçisi Məleykə Mirzəli və dosent Məti Osmanoğlu kitabla bağlı fikirlərini bölüşüblər.

Sonda kitabın tərtibçiləri təltif edilib və oxucular üçün kitablar imzalanıb.

# Filologiya fakültəsinin tələbələri “Ədibin Evi”nə ekskursiya ediblər



***Aprelin 26-da görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin anadan olmasının 115 ili tamam olur. Bu münasibətlə aprelin 6-da Filologiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin üzvləri “Türkoloji araşdırmalar” elmi-tədqiqat laboratoriyasının (ETL) elmi işçiləri Pərvin Eyvazov və Ramil Bayramovun rəhbərliyi ilə “Ədibin evi”nə ekskursiya ediblər.***

“Ədibin Evi” Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva tələbələri salamlayaraq, XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Bildirib ki, “Ədibin evi” yazıçının 1929-1941-ci illərdə İçərişəhərdə yaşadığı məkanda yaradılıb və həmin evdə anadan olmuş yazıçının oğlu, akademik Arif Paşayev 2017-ci ildə buranı bərpa edərək mədəniyyət ocağı kimi istifadəyə verib. Mir Cəlalın məşhur əsərləri, o cümlədən “Bir gəncin manifesti”, “Dirilən adam”, “Füzuli sənətkarlığı”, həmçinin bir çox populyar satirik hekayələri bu evdə qələmə alınıb. Eyni zamanda qeyd olunub ki, “Ədibin Evi” Ədəbiyyata Dəstək Fondu ötən müddət ərzində Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini, ədəbi irsini tədqiq və təbliğ edən bir çox tədbirlər həyata keçirib.

Ekskursiya zamanı tələbələr Mir Cəlala dair bəzi şəxsi əşyalarla, haqqında yazılmış kitablarla tanış olub, “Ədibin Evindən Hekayələr” layihəsi çərçivəsində yazıçının “İngilis dili” hekayəsini dinləyiblər.

Sonda “Türkoloji araşdırmalar” ETL-in elmi işçiləri Pərvin Eyvazov və Ramil Bayramov Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, o cümlədən Mir Cəlal irsinin tədqiqi və təbliği sahəsində bu mədəniyyət ocağı tərəfindən görülən işləri yüksək qiymətləndirib, göstərilən xüsusi diqqətə görə fakültə rəhbərliyi və tələbələr adından Şəfəq Mehrəliyevaya təşəkkürlərini bildirərək, “Ədibin Evi”nin fəaliyyətinə uğurlar arzulayıblar.

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş spartakiada start götürüb

***Aprelin 11-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş spartakiada start götürüb.***

Spartakiada çərçivəsində ali təhsil müəssisəsinin tələbələri arasında voleybol, şahmat, dama, stolüstü tennis və fakültələrarası futbol turnirləri keçirilir.

Sonda spartakiadanın qalibi olan komandalar mükafatlandırılacaq.

# SABAH qrupları tələbələri "Technest" təqaüd proqramının qalibi olublar

***BDU-nun SABAH qruplarının III kurs Biologiya müəllimliyi ixtisasının tələbəsi Jalə Fətaliyeva, IV kurs Kompüter elmləri ixtisasının tələbələri Məmməd Əliyev, Emil Quluzadə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən keçirilən “Technest” təqaüd proqramının qalibi olublar.***

Qeyd edək ki, “Technest” təqaüd proqramının məqsədi informasiya texnologiyaları üzrə milli kadrların yetişdirilməsini sürətləndirmək, bu sahədə mövcud çatışmazlıqları aradan qaldırmaq və ölkədə rəqəmsal inkişafa töhfə verməkdir. “Technest” məktəblilər, tələbə və məzunlar üçün İKT sahəsində peşəkar və ödənişsiz təlimləri təmin edən təhsil proqramıdır. Eyni zamanda sahibkarlıq təfəkkürlü, innovativ həllər təklif edən gənclərin gələcəkdə startaplar qurmasında önəmli rol oynayan əməkdaşlıq müstəvisidir.

# BDU tələbələri “Xıllı Balıq” və “Azerbaijan Fish Farm” balıqçılıq təsərrüfatlarında istehsalat təcrübəsində



***Aprelin 10-da Biologiya fakültəsinin Su bioehtiyatları və akvabitkilər ixtisası üzrə təhsil alan IV kurs tələbələri Zoologiya və fiziologiya kafedrasının dosenti Çingiz Məmmədovun rəhbərliyi ilə Neftçala rayonunun Xıllı qəsəbəsində fəaliyyət göstərən “Xıllı Balıq” və Bankə qəsəbəsində yerləşən “Azerbaijan Fish Farm” Məhdud Məsuliyyətli cəmiyyətlərində (MMC) istehsalat təcrübəsi keçiblər.***

Təcrübə prosesində tələbələr təsərrüfların quruluşu, istehsalat prosesində istifadə olunan avadanlıq və qurğular, balıqartırma prosesinin müxtəlif biotexnoloji mərhələləri ilə tanış olublar. Onlar Azərbaycanın qiymətli vətəgə balıqlarından olan nərələrin süni artırılması prosesini, burada tətbiq olunan yeni texnoloji metodları əyani şəkildə izləyiblər. Azərbaycanda ilk dəfə tətbiq olunmuş temperatur rejimi ilə idarə olunan qapalı su təchizatı sistemində mayalanmış kürülərin inkubasiya prosesi, istehsalatın müxtəlif mərhələlərində itkilərin aradan qaldırılması üsulları, sürfə və körpələrin “hovuz üsulu” ilə yetişdirilməsi texnologiyaları, həmçinin onların canlı və qarışıq yemlərlə yemləndirilməsi texnologiyaları tələbələrin marağına səbəb olub. Tələbələr təsərrüfatlarda canlı yem istehsalı, qarışıq yemlərin hazırlanması texnologiyaları, müxtəlif növ nərələrin törədici fondu, balıqartırma və əmtəə məqsədilə istifadə qaydaları ilə ətraflı tanış olublar.

# BDU tələbəsi Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 44-cü sessiyasında iştirak edib



***Hüquq fakültəsinin I kurs tələbəsi Azər Seyidli Avropa Şurasının (AŞ) Yerli və Regional Hakimiyyətlər Konqresinin (Congress of Local and Regional Authorities) "Gənc təmsilçi"si kimi qurumun Strasburqda keçirilmiş 44-cü sessiyasında iştirak edib.***

Avropa Şurası artıq 7 ildir "Gənc təmsilçi" proqramını reallaşdırır. Proqrama əsasən, hər il Avropa Şurasına üzv ölkələrdən yalnız bir gəncə "Gənc təmsilçi" mandatı verilir . Həmin gənc Konqresin sessiyalarına qatılır, öz ölkəsini AŞ-nin müvafiq strukturunda təmsil edir. Bu təmsilçinin debatlar zamanı öz fikirlərini bildirmək, gündəlikdəki məsələlərlə bağlı Konqres üzvləri ilə fikir mübadiləsi aparmaq hüququ var. Konqresin 44-cü sessiyasında əsas müzakirə mövzuları gənclərin iştirakı ilə lokal səviyyədə demokratiyanın inkişafı, ətraf mühitin qorunması üçün regional strategiyalar, Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) lokallaşdırılması, şəhər və regionların böhranlar zamanı gücləndirilməsi olub.

İngilis dilində sərbəst danışan Azər Seyidli gündəlikdəki müzakirələrdə fəal iştirak edib.

Proqramın məqsədi Avropanın yerli səviyyədə qərarvericiliyində gənclərin rolunu gücləndirmək, qəbul olunan qətnamə və qərarlarda gənclərin fikirlərini öyrənməkdir.

# Tələbə Gənclər Təşkilatının üzvləri II Fəxri xiyabanı ziyarət ediblər



***Aprelin 3-də Tələbə Gənclər Təşkilatının (TGT) üzvləri Aprel döyüşlərinin ildönümü münasibəti ilə II Fəxri xiyabanı ziyarət ediblər.***

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi ehtiramla yad edilib. TGT üzvləri şəhidlərimizin ruhlarına dualar oxuyub, məzarları üzərinə gül dəstələri düzüblər.

# BDU tələbələri üçün növbəti "ARB 24 NewsLab" təlim proqramı başlayıb



***Aprelin 4-də Bakı Dövlət Universiteti və "ARB 24" telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində növbəti "ARB 24 NewsLab" təlim proqramı başlayıb.***

Proqram 3 ay davam edəcək. Müsahibə mərhələsindən uğurla keçən tələbələr daha sonra praktik məşğələlərə cəlb olunacaqlar. BDU və "ARB 24"ün birgə təşkilatçılığı ilə hazırlanan layihə xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, videomontaj sahələrini əhatə edir.

Təlimin ilk günü BDU-da keçirilib. "ARB 24 TV"nin direktoru Radik Ismayılov həm layihə iştirakçılarına, həm də Jurnalistika fakültəsinin III kurs tələbələrinə təlim keçib.

Tədris proqramını uğurla başa vuran iştirakçılara sertifikat veriləcək və onların yarısı "ARB 24"də işlə təmin olunacaq.

Qeyd edək ki, bu, Bakı Dövlət Universiteti və "ARB 24" telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində reallaşan ikinci təlim proqramıdır. Birinci təlim proqramını uğurla başa vuran 4 nəfər 2022-ci il oktyabrından rəsmi şəkildə işə götürülüb və hazırda onlar "ARB 24"də fəaliyyətlərini davam etdirirlər.

# "Gənclər narkomaniyaya qarşı" mövzusunda maarifləndirici tədbir

***Aprelin 3-də Kimya və Biologiya fakültələrinin Tələbə Gənclər Təşkilatlarının (TGT) təşkilatçılığı ilə "Gənclər narkomaniyaya qarşı" mövzusunda maarifləndirici tədbir keçirilib.*** TGT-nin Kimya fakültəsi üzrə sədri Əli Qədirli müasir dövrdə narkomaniyanın insanlıq əleyhinə böyük bəlaya çevrildiyini qeyd edib, yeniyetmə və gənclər arasında "ağ ölüm"lə mübarizənin və ictimai nəzarətin əhəmiyyətini vurğulayıb.

Biologiya fakültəsinin TGT sədri Fatimə Atakişiyeva çıxışında gənclər arasında psixoaktiv maddələrdən sui-istifadə zamanı yaranan asılılıq problemləri, asılılığın başvermə səbəbləri, narkotik maddələrin kimyəvi tərkibi, fəsadları, bununla əlaqədar hüquq pozuntularının profilaktikası haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Tədbirdə narkomaniyanın cinayətkarlığa, zorakılığa yol açdığı, hazırda ciddi qlobal problemə çevrildiyi, bu vasitələrdən istifadə edən şəxslərin özlərini uğurlu gələcəkdən məhrum etdikləri nəzərə çatdırılıb.

Tədbirin sonunda mövzu ilə bağlı videoçarx izlənilib.

# BDU-nun SABAH qruplarının tələbələri Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda infosessiyada



***Aprelin 4-də BDU-nun SABAH qruplarının Biologiya müəllimliyi ixtisasının III kurs tələbələri üçün Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda infosessiya təşkil olunub.***

Biologiya elmləri doktoru Asif Manafovun rəhbərliyi ilə keçirilən infosessiya zamanı İnstitutun baş direktoru, akademik İradə Hüseynova tələbələrə təhsil zamanı qazandıqları biliklərin praktikada tətbiqinin zəruriliyi və gələcək elmi fəaliyyətləri üçün əhəmiyyətindən bəhs edib. Tələbələr Genomun quruluşu və ekspressiyası, Bioadaptasiya, Karbonun fotosintetik assimilyasiyasının enzimologiyası, Bitki biotexnologiyası, Xloroplastların fotokimyası, Bioinformatika, Proteomiks laboratoriyaları ilə tanış olublar.

AMEA-nın müxbir üzvü İbrahim Əzizov, biologiya elmləri doktorları Şahniyar Bayramov, Səftər Süleymanov, biologiya üzrə fəlsəfə doktorları Nərgiz Sultanova, Zərifə Süleymanova, Səadət Xudaverdiyeva, Taliyə Orucova, Mayaxanım Xanışova, Aynurə Paşayeva laboratoriyalarda aparılan elmi-tədqiqat işləri, alınan nəticələr və nailiyyətlər barədə tələbələrə məlumat veriblər. Qeyd edək ki, infosessiyanın məqsədi nəzəri biliklərin praktikada tətbiqinin genişləndirilməsidir.

# BDU tələbələri üçün təlim: "Beynəlxalq alqı-satqı müqavilələrində diqqət edilməli olan nüanslar"

***Aprelin 4-də Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə tələbələr üçün "Beynəlxalq alqı-satqı müqavilələrində diqqət edilməli olan nüanslar" adlı təlim keçirilib.***

Təlimçi kimi Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, hüquq üzrə fəlsəfə doktoru İlqar Babayev çıxış edib.

İki hissədən ibarət olan təlimin nəzəriyyə hissəsində İlqar Babayev tələbələrə beynəlxalq alqı-satqı müqavilələrinin anlayışı, bağlanma qaydası, icrası zamanı yaranan çətinliklər və onların həlli yolları barədə ətraflı məlumat verib.

Təlimin praktiki hissəsində isə mövzu ilə bağlı müqavilə nümunəsi nəzərdən keçirilib və tələbələrlə müzakirə aparılıb. Sonra İlqar Babayev tələbələrin mövzu ilə bağlı suallarını cavablandırıb. Təlimin sonunda İlqar Babayev Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının İdarə Heyəti tərəfindən sertifikatla təltif edilib.

# “Tələbə evi”nin ərazisində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası

***Aprelin 5-də BDU-nun “Tələbə evi”nin ərazisində “Heydər Əliyev İli” çərçivəsində Yasamal rayon İcra Hakimiyyəti, BDU və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının təşkilatçılığı ilə növbəti ağacəkmə aksiyası keçirilib.*** Tədbirdə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, BDU rektoru Elçin Babayev, Milli Məclisin üzvü Ülvi Quliyev, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, yerli idarə və təşkilat təmsilçiləri, Yasamal bələdiyyəsinin və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.





Aksiya zamanı Eldar şamı, sərv, tuya, akasiya və digər növ ağaclar əkilib, ərazidə abadlıq işləri aparılıb, ağacların dibi yumşaldılıb, yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Aksiya zamanı həmçinin ərazidə daha öncə əkilmiş ağaclar suvarılıb, taxta dirəklərlə möhkəmləndirilib. Aksiyanın keçirilməsində məqsəd Yasamal rayonunda yaşıllıq əraziləri genişləndirmək, ekoloji tarazlığın bərpasına nail olmaq, ətraf mühitin qorunmasına kömək etmək və ictimaiyyətin diqqətini yaşıllıqların qorunmasına yönəltməkdir.

# Tələbələrin III Respublika konfransı: “Elektron kataloq – yüksək informasiya texnologiyalarının nəticəsi kimi”

***Aprelin 14-də İnformasiya və menecment fakültəsinin və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Elektron kataloq – yüksək informasiya texnologiyalarının nəticəsi kimi” mövzusunda tələbələrin III Respublika konfransı keçirilib.*** Tədbiri giriş sözü ilə açan professor Xəlil İsmayılov bildirib ki, son dövrlər BDU-da elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi, o cümlədən tələbələrin də bu prosesə cəlb edilməsi istiqamətində mühüm addımlar atılır: “Bu mənada İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə davamlı olaraq keçirilən, artıq ənənə halını alan “Elektron kataloq – yüksək informasiya texnologiyalarının nəticəsi kimi” mövzusunda Respublika konfransı xüsusi əhəmiyyətə malikdir. Builki konfransın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması tədbirin əhəmiyyətini daha da artırır”. Konfransın tələbələrdə elmi fəaliyyətə böyük maraq yaradacağını vurğulayan Xəlil İsmayılov tədbirin işinə uğurlar arzulayıb.

İnformasiya və sənəd menecmenti fakültəsinin Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, dosent Rəşad Qardaşov qeyd edib ki, tədbirin keçirilməsində məqsəd kitabxana-informasiya fəaliyyətində əsas element olan elektron kataloqların və avtomatlaşdırma proseslərinin müasir vəziyyətini və perspektivlərini araşdırmaq, tələbələrdə elmi tədqiqata marağı artırmaq, bu istiqamətdə olan elmi nəticələri müzakirə etməkdir.

Respublika konfransında tələbələr BDU-nun Elmi Kitabxanası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Kitabxanası, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi Kitabxanası, Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana İnformasiya Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana İnformasiya Mərkəzi, Azərbaycan Dillər Universitetinin Kitabxana İnformasiya Mərkəzi və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin AzİI Kitab Evində avtomatlaşdırma proseslərinin müasir vəziyyəti, istifadə səmərəliliyi, elektron kataloqun axtarış imkanları barədə təqdimatlarla çıxış ediblər. Təqdimatlarda kitabxanaların bu sahədəki fəaliyyəti şərh edilib, müqayisəli təhlillər aparılıb, alınmış nəticələr təqdim olunub, təkliflər irəli sürülüb.

Sonda fakültə rəhbərliyi və təmsil olunan kitabxanaların direktorları çıxış edərək konfransın əhəmiyyətindən bəhs edib, təşkilatçılığa və yüksək səviyyədə dəstəyə görə Universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# BDU-da Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fubol turniri davam edir



***Aprelin 11-də BDU-da Ümummili lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar spartakiada çərçivəsində fakültələrarası futbol turnirinin növbəti oyunları keçirilib.*** İki turdan sonra 8 komandadan 5-i - Tarix, Mexanika-riyaziyyat, Kimya, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Coğrafiya fakültələrinin komandaları növbəti mərhələyə vəziqə qazanıb.

Fakültələrarası futbol turniri mayın 6-da yekunlaşacaq.

# BDU-da çiçəkəkmə aksiyası

***Aprelin 11-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş çiçəkəkmə aksiyası keçirilib. Aksiyada BDU-nun müxtəlif fakültələrinin tələbələri iştirak ediblər.***

Aksiyada 500-dək gül əkilib. Tədbirin məqsədi ətraf mühitin qorunmasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə verməkdir.




**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 28.04 .2023

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08